13 sentyabr 2019 №65 (1650) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Üzeyir Hacıbəyli festivalının zəngin proqramı var

18 sentyabr – Milli Musiqi Günündə dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunmuş növbəti musiqi bayramı başlanacaq. Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı sentyabrın 30-dək davam edəcək.

səh. 2

## Nazir media nümayəndələrini mədəni sərvətlərimizin təbliğində daha fəal olmağa çağırdı

"Teatr və konsert müəssisələri yeni mövsümü açmağa hazırlaşır. Yay mövsümündə onlar yeni layihələr üzərində işləyiblər. Bu il də ölkəmizin mədəni həyatı öz zənginliyi ilə yadda qalacaq".

Mədəniyyət naziri Əbülfəs Qarayev bu sözləri sentyabrın 12-də Muzey Mərkəzində teatr-konsert müəssisələrində yeni mövsümün açılışına həsr olunmuş brifinqdə dedi.

Nazir vurğuladı ki, dövlət başçısının xüsusi diqqət və qayğısı ilə teatr, konsert müəssisələrinin binaları təmir olunub, maddi-texniki bazası yaxşılaşdırılıb. Bu proses bu gün də davam edir. Hazırda İrəvan Dövlət Azərbaycan Dram Teatrında təmir işləri həyata keçirilir. Bildirildi ki, bütün teatrlara yeni səhnə əsərlərinin hazırlanması üçün dövlət sifarişləri verilib. Həmçinin ölkə başçısının müvafiq sərəncamına əsasən, bütün teatrlara birdəfəlik maddi yardım göstərilib.

davamı səh. 2-də

## 31 ölkəyə aid 200 musiqi aləti

Heydər Əliyev Fondunun bir neçə ildir üzərində işlədiyi və müxtəlif mənbələrdən toplanan unikal kolleksiya sentyabrın 17-dən "Musiqi alətləri: birlik və müxtəliflik" sərgisində təqdim ediləcək.

Heydər Əliyev Mərkəzində açılacaq sərgidə XVIII-XX əsrlərə aid 200-dək musiqi aləti nümayiş olunacaq. Ekspozisiyanın unikal eksponatları sırasında N.Gəncəvinin "Xəmsə"sindən səhnələr həkk olunmuş, qızıl, brilyant və sədəflərlə işlənmiş kamança, Şəkinin XVIII əsrə aid olan cürə nağarası da yer alıb.

səh. 2



## Berlində Nəsiminin 650 illik yubileyi münasibətilə konsert

Sentyabrın 11-də Almaniyanın paytaxtı Berlində Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş bəstəkarlarımızın əsərlərindən ibarət konsert təşkil edilib.

Konsertdən əvvəl çıxış edən Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov iştirakçılara İmadəddin Nəsiminin (1369-1417) ömür yolu və bənzərsiz yaradıcılığı haqqında məlumat verib.

Səfir Şamaxı şəhərində dünyaya göz açmış İmadəddin Nəsiminin Yaxın Şərqin görkəmli mütəfəkkirlərinin əsərlərini mütaliə etdiyini, dövrünün təriqətlərinə maraq göstərdiyini, Azərbaycan ədəbiyyatında bədii-fəlsəfi poeziyanın əsasını qoyduğunu, söz sənətimizi forma və məzmunca zənginləşdirdiyini, özündən sonrakı nəsillər üçün böyük ədəbi irs qoyub getdiyini nəzərə çatdırıb.

davamı səh. 3-də

# Yaradıcı zəhmətə verilən qiymət

### Mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət təltifləri təqdim olundu

Sentyabrın 12-də Muzey Mərkəzində Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup mədəniyyət və ədəbiyyat xadiminə mükafatların təqdim olunması mərasimi keçirildi.

Tədbirdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev ölkəmizdə mədəniyyət və ədəbiyyat sahələrində xidmətləri olan şəxslərə dövlət qayğısından danışdı. Bildirdi ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Hər bir yaradıcılıq nümunəsinin arxasında fitri istedadla yanaşı, gərgin əmək dayanır. Sevinirəm ki, dövlətimiz bu fədakar əməyi daim qiymətləndirir. Yaradıcı axtarış elə prosesdir ki, burada həm də bir özünəməxsusluq var. Hər bir yaradıcı insanın əməyi xalq tərəfindən də yüksək dəyərləndirilir".



Nazir vurğuladı ki, bu gün mədəniyyət işçilərinə ayrılan diqqət bütövlükdə Azərbaycan mədəniyyətinə göstərilən qayğıdır. Hazırda mədəniyyətimiz dünya səviyyəsində tanınır, təbliğ edilir, beynəlxalq qurumlarda qəbul olunur. Bütün bunlar dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahədə gördüyü misilsiz işlər sayəsində mümkün olub.

davamı səh. 2-də

## "Belə tədbirlər xalqlarımızın biri-birini yaxından tanımasına xidmət edir"

Sentyabrın 11-də Heydər Əliyev Sarayında IV İndoneziya mədəniyyəti festivalının açılış mərasimi keçirildi. Tədbir İndoneziyanın ölkəmizdəki səfirliyinin təşəbbüsü və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşdı.

Əvvəlcə iştirakçılar sarayın foyesində İndoneziyanın milli mədəniyyətini əks etdirən sərgi ilə tanış oldular.

İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan Bəy Fənani çıxış edərək bu gün ölkəsinin üçüncü prezidenti olmuş Buxaruddin Yusif Həbibinin dünyasını dəyişdiyini bildirdi, ruhuna dualar oxudu.



Səfir ölkəmizdə İndoneziya mədəniyyəti festivallarının təşkil olunmasına yaxından dəstək verdiyinə görə Azərbaycan hökumətinə minnətdarlığını ifadə etdi. Azərbaycan və İndoneziya arasında mövcud olan mədəni əlaqələrdən danışan səfir ölkəmizin də zəngin mədəniyyətə malik olduğunu vurğuladı.

Qeyd etdi ki, festivalın təşkil olunması təkcə İndoneziya mədəniyyətini və turizmini tanıtmaq deyil, həmçinin ölkənin müstəqillik əldə etməsinin 74-cü ilinə həsr olunub: "Ölkəmiz zəngin, eyni zamanda böyük mədəniyyətə sahibdir. Bu gün indoneziyalı incəsənət ustaları ilə yanaşı, azərbaycanlı tələbələrin təqdim etdiyi tamaşalar Azərbaycanın gənc nəsli tərəfindən də necə isti qarşılandığımızın şahidi olacaqsınız. Bu, ölkələrimiz arasında dostluğun, qardaşlığın bir təzahürünə çevriləcək. Festival İndoneziya mədəniyyəti və ölkəmizdə istehsal olunmuş məhsulların tanıdılması baxımından xüsusi əhəmiyyətə malikdir".

davamı səh. 4-də

## Bakıda Dünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı

Bakıda Dünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı keçirilir. Sentyabrın 12-də işə başlayan tədbirdə Asiya, Avropa və Afrikanın 20-yə yaxın ölkəsindən nümayəndələr, BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların təmsilçiləri, yerli media qurumlarının rəhbərləri və ekspertlər iştirak edirlər.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov açılış sözündə diqqətə çatdırıb ki, Dünya Mətbuat Şuraları Assosiasiyası 1992-ci ildə yaradılıb. Qurumun illik toplantılarında media sahəsi ilə bağlı aktual məsələlər müzakirə olunur, problemlərin aradan qaldırılması ilə bağlı təkliflər səsləndirilir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov toplantı iştirakçılarını dövlət başçısı İlham Əliyev və hökumət adından salamlayıb. Qeyd edib ki, Azərbaycan milli mətbuatı yüz ildən artıq bir tarix çərçivəsində müxtəlif inkişaf mərhələlərini keçərək ictimai həyatımızın ayrılmaz tərkib hissəsinə və vətəndaş cəmiyyətinin hərəkətverici qüvvələrindən birinə çevrilib. Əli Həsənov Prezident Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı fərmanla KİV üzərində senzuranın ləğv edilməsi, sonrakı dövrdə kütləvi informasiya vasitələri, informasiyanın əldə olunması, milli teleradio yayımı, informasiya azadlığı və digər sahələrlə bağlı yeni qanunların qəbul olunması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlardan söz açıb.

davamı səh. 3-də

## Onu niyə sevirik?..

Peşəkar kinematoqrafçıların ümdə arzularından biri də həyatın inikası kimi qəbul edilən kinonu ciddi sənət növü olaraq tamaşaçıya sevdirməkdir. Onlar istəklərinin gerçəkləşməsinə bilik və bacarıqları, istedad və zəhmətləri vasitəsilə nail olurlar.

Maraqlı və məzmunlu ekran əsərləri ilə Azərbaycan kinosuna dəyərli töhfələr verən görkəmli rejissor, Əməkdar incəsənət xadimi Arif Babayev də kinonu zamanın güzgüsü timsalında bizə sevdirən, ekran obrazlarını müasirimizə, həmsöhbətimizə çevirən sənətkarlarımızdandır. Onu həmkarlarının xatirələrinə istinadən dost-tanışları qədər yaxından tanıyırıq deyə bilərik. Buna görə də filmlərindəki həssaslığın və kövrək hisslərin nədən, haradan qaynaqlandığını anlayırıq. İstedadlı rejissorun unudulmamasına səbəb də məhz könlünün gözü ilə çəkdiyi, ruhunun gözəlliyindən pay böldüyü ekran əsərləridir.

davamı səh. 7-də

## Səhnəyə yeni opera gəlir: "Məhsəti"

XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında bizi təkcə məşhur xarici musiqiçilərlə görüş, maraqlı əsərlərin ifası gözləmir. Bizi həm də yeni opera ilə tanışlıq gözləyir. Festivalın anonslarından xəbərdar olduğumuz kimi, sentyabrın 27-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Pikə Axundovanın "Məhsəti" operasının premyerası olacaq.

Pikə Axundova Bülbül adına Orta İxtisas Musiqi Məktəbini üç ixtisas – fortepiano, bəstəkarlıq və nəzəriyyə sinifləri üzrə bitirib.

səh. 5

### Nuru paşa və Qafqaz İslam Ordusu rəsm əsərlərində




səh. 2

### Ölkəmizin Rusiya Federasiyasının regionları ilə mədəni əlaqələri inkişaf edir

səh. 3



### Bakı Uşaq Teatrı "Arzular"la Nevşehirdə

səh. 5

## Üzeyir Hacıbəyli festivalının zəngin proqramı var

18 sentyabr – Milli Musiqi Günündə dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunmuş növbəti beynəlxalq musiqi festivalı başlanacaq. Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı sentyabrın 30-dək davam edəcək.




Festivalda Rusiya, Gürcüstan, ABŞ, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan və Ukraynadan tanınmış musiqiçilər – Sergey Roldugin, Xatia Buniatişvili, Alyona Bayeva, Miroslav Kultışev, Sergey Doqadin, Filipp Kopaçevski, Veliçka Yoçeva, Yevgeni Avramenko, Lorenzo Tazzieri, Dmitri Xoxlov, Aleksandr Hacıyev, Marqarita Aleksandroviç, Murat Səlim Tokac, Regina Rüstəmova, Cəbrayıl İdrisov, Giorgi Çelidze, Ümid İsrailov iştirak edəcəklər. Türkiyədən Çukurova Dövlət Simfonik Orkestri (Adana), Çin Xalq Respublikasından "Silk Road" Filarmonik Orkestri festivalın qonağı olacaq. Həmçinin Azərbaycanın musiqi kollektivləri, dirijor və ifaçılar – Rauf Abdullayev, Ülviyyə Hacıbəyova, Yeganə Axundova, Fəxrəddin Kərimov, Murad Adıgözəlzadə, Murad Hüseynov, Əyyub Quliyev, Mustafa Mehmandarov və başqalarının iştirakı ilə konsert proqramları – ümumilikdə festival müddətində 40-a yaxın tədbirin keçirilməsi nəzərdə tutulub.

# Yaradıcı zəhmətə verilən qiymət

### Mədəniyyət və ədəbiyyat xadimlərinə dövlət təltifləri təqdim olundu



əvvəli səh. 1-də

Əbülfəs Qarayev qeyd etdi ki, Azərbaycanın mədəni həyatı maraqlı hadisələrlə zəngindir: "Artıq teatr və konsert müəssisələri mövsümü açır. Bu il də ölkəmizin mədəni həyatı öz zənginliyi ilə seçiləcək. Üzeyir Hacıbəyliyə həsr olunmuş XI Beynəlxalq Musiqi Festivalı, VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası, Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalı və digər böyük tədbirlər keçiriləcək".

Daha sonra nazir mükafatları sahiblərinə təqdim etdi. Dövlət başçısının sərəncamları ilə baletmeyster Maqsud Məmmədov və rejissor Mərahim Fərzəlibəyov "Şöhrət" ordeninə, şair Vahid Əziz "Xalq şairi" fəxri adına, aktyor və rejissor Cahangir Novruzov, müğənni İlqar Muradov, pianoçu Cavanşir Zeynallı, aktyorlar Vidadi Həsənov və Vidadi Əliyev "Xalq artisti" fəxri adına layiq görülüblər. Şair Vaqif Bayatlı Odər, yazıçılar Elçin Hüseynbəyli və Firuz Mustafa "Əməkdar incəsənət xadimi" fəxri adı, rejissorlar Zülfüqar Abbasov və Oktay Əlizadə isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunublar. Bundan əlavə, bir qrup mədəniyyət və incəsənət xadimi "Əməkdar artist", "Əməkdar mədəniyyət işçisi" fəxri adları və "Tərəqqi" medalı ilə mükafatlandırılıb.



Bütün təltif olunanları təbrik edən Əbülfəs Qarayev mədəniyyətimizin inkişafında onlara yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Təltif olunan sənət adamları çıxış edərək onlara təqdim edilən mükafatın böyük məsuliyyət hissi yaratdığını vurğuladılar. Ölkəmizdə mədəniyyət işçilərinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıq ifadə olundu.

**F.HÜSEYNOV**

# Nazir media nümayəndələrini mədəni sərvətlərimizin təbliğində daha fəal olmağa çağırdı

### "Bəzən sensasiya xatirinə yayılan material bədxahlarımıza mövzu vermiş olur"



əvvəli səh. 1-də

Nazir qeyd etdi ki, sentyabrın 18-də başlayacaq ənənəvi Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında müxtəlif ölkələrdən ifaçı və kollektivlər, o cümlədən Rusiya, Çin və Avstriyadan qonaqlar olacaq. İlin sonunadək ölkəmizdə bir sıra vacib mədəniyyət tədbirləri həyata keçiriləcək.

Əbülfəs Qarayev əlavə etdi ki, Ermənistan hər zaman Azərbaycanın nailiyyətlərinə kölgə salmağa uğursuz cəhdlər edir: "Ona görə də bizim cavabımız yaradıcı prosesin uğurla davam etdirilməsi ilə verilə bilər. Hamımız dərk etməliyik ki, bizim bu sahədə gündəlik mübarizəmiz görünməyən cəbhədə gedir. Azərbaycan mədəniyyətinin dünyaya tanıdılması istiqamətində işləri daha da gücləndirməliyik. Xalqımız kimsənin yaratdığı mədəni sərvətə, sənət nümunəsinə heç vaxt əl uzatmayıb. Amma bizim sərvətlərə hər zaman əl uzadılıb".

Nazir mədəni tədbirlər zamanı insanların davranışları məsələsinə də toxundu: "Son zamanlar aparılan təhlillər onu deməyə əsas verir ki, bu sahədə müsbət tendensiya var. Məsələn, vaxtilə bizim konsertlər, teatr tamaşaları, tədbirlər zamanı telefon zənglərinin səslənməsi - tamaşaçının da, ifaçının da diqqətini yayındıran belə hallar çox idi. Ancaq indi bunların sayı azalıb, insanlar bilirlər ki, tamaşa, konsert və s. zamanı telefonu söndürmək və ya səsini azaltmaq lazımdır. Mədəniyyətdə həm də belə xırda nüanslardan başlamaq lazımdır. Hər mədəni tədbirə gəliş insanlar üçün mənəvi bayrama çevrilməlidir. Səhnədə çıxış edən insan da həssaslıqla auditoriyadan müsbət aura almaq istəyir. Telefon zəngləri və ya başqa fikir yayındıran hallar bu xoş duyğuları almağa mane olur. Ona görə də çalışmaq lazımdır ki, tədbirin gözəlliyini hiss edəsən. Media nümayəndələri də belə məsələlərdə cəmiyyətin düzgün istiqamətləndirilməsinə çalışmalıdır".

Əbülfəs Qarayev media nümayəndələrinə də çağırış etdi. Qeyd etdi ki, bəzən mediada sensasiya xatirinə bir material, kiminsə haqqında mənfi fikrin səsləndirilməsi, əslində, bizim bədxahlarımıza mövzu vermiş olur. Sənət adamlarının hər biri xalqımızın mənəviyyatı üçün çalışır, yaradıcılıq üslubları, əsərləri fərqli olsa da. Misal olaraq, bütün rəssamlar eyni cür rəsmlər çəkməlidir? Ancaq kimsə pisdir deməklə nə əldə olunur? Hər musiqiçi eyni tərzdəmi ifa edir? Hər kəsin zövqü fərqlidir. Tənqid də peşəkarlığa əsaslanmalıdır. Daxili etik senzuranı da dinləmək lazımdır. Kiminsə dediyini olduğu kimi yazmaqla iş bitdi demək olmaz. Unutmayaq ki, bizi istəməyən qüvvələr bizi öz silahımızla vurmağa çalışırlar".

Nazir vurğuladı ki, Azərbaycanın çox zəngin mədəni sərvəti var. Təsviri sənət nümunələri, heykəltəraşlıq əsərləri, abidələrimiz, maddi mədəni irsimiz, Azərbaycan musiqisi – hamısı bizim sərvətimizdir: "Tarixi abidələrimizi qorumasaq, sanki öz doğma əcdadlarımıza hörmətsizlik etmiş oluruq. Mən bir daha sizi bu məsələlərdə ictimaiyyətin maarifləndirilməsinə önəm verməyinizi istərdim".

Əbülfəs Qarayev Azərbaycan əsilli məşhur müğənni Sami Yusufun böyük şair, mütəfəkkir İmadəddin Nəsiminin "Sığmazam" qəzəli əsasında hazırladığı musiqi kompozisiyasının geniş dinləyici auditoriyasında böyük rezonans doğurması barədə də fikirlərini bölüşdü: "Dünya şöhrətli müğənni və bəstəkar Sami Yusuf bu kompozisiyanı özünün "YouTube" kanalında yerləşdirdiyi andan internet məkanında əsl hadisəyə çevrildi. Kompozisiya bu il iyunun 30-da Bakıda – Heydər Əliyev Mərkəzində UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində ifa olunub. Bu, alqışa layiq bir iş idi. Biz onu o vaxt müəllif hüquqlarına görə yaymadıq. İndi həmin musiqi kompozisiyası barədə yazılan rəyləri, fikirləri oxuyuram və bu, çox xoşdur. Yaradıcı insanların işi hər zaman göz önündə olur".

Sonda nazir jurnalistləri maraqlandıran bir sıra sualları da cavablandırdı.

**FARİZ**

## 31 ölkəyə aid 200 musiqi aləti

### Bakıda unikal sərgi açılacaq

Heydər Əliyev Mərkəzində hər kəsin marağına səbəb olacaq yeni sərgi açılır. Tarixi eksponatlar, ölkələrin musiqi mədəniyyətini canlı izləmək imkanı, korifey sənətkarların vaxtilə ifa etdiyi musiqi alətlərini yaxından görmək və bir daha dinləmək fürsəti…

Heydər Əliyev Fondunun bir neçə ildir üzərində işlədiyi və müxtəlif mənbələrdən toplanan unikal kolleksiya sentyabrın 17-dən "Musiqi alətləri: birlik və müxtəliflik" sərgisində təqdim ediləcək.

Heydər Əliyev Mərkəzində açılacaq sərgidə XVIII-XX əsrlərə aid 200-dək musiqi aləti nümayiş olunacaq. Bunlar 31 ölkəyə - Azərbaycan, Albaniya, Bolqarıstan, Çin, Dağıstan (Rusiya Federasiyası), Əfqanıstan, Əlcəzair, Gürcüstan, Hindistan, İndoneziya, İraq, İran, Kipr, Qazaxıstan, Qırğızıstan, Liviya, Macarıstan, Şimali Makedoniya, Mərakeş, Misir, Monqolustan, Özbəkistan, Pakistan, Rumıniya, Serbiya, Suriya, Tacikistan, Türkiyə, Türkmənistan, Yəmən və Yunanıstana aid musiqi alətləridir.

Ekspozisiyanın unikal eksponatları sırasında N.Gəncəvinin "Xəmsə"sindən səhnələr həkk olunmuş, qızıl, brilyant və sədəflərlə işlənmiş kamança, Şəkinin XVIII əsrə aid olan cürə nağarası da yer alıb.

Kolleksiyada həmçinin tanınmış incəsənət xadimlərinə aid musiqi alətləri var. Xalq artistləri Xan Şuşinski, Rübabə Muradova, Əbülfət Əliyev, Ağaxan Abdullayevə məxsus qavallar, Həbib Bayramov, Möhlət Müslümov, Ramiz Quliyev və Ceyran Haşımovaya aid tarlar, Aftandil İsrafilovun qarmonu, Əməkdar incəsənət xadimi aşıq Ədalət Nəsibovun sazı, tanınmış balaban ifaçısı Nizan Fətəliyevə aid balaban, Əməkdar artist Ədalət Vəzirovun kamançası sərgidə yer alacaq.

Xalq artisti Natiq Şirinovun e.ə. V minillikdə Azərbaycanda mövcud olmuş küpə zərb aləti əsasında 2006-cı ildə hazırladığı alət, e.ə. IV minilliyin sonlarına aid nağara əsasında düzəltdiyi nağara (2010), 2015-ci ildə Azərbaycanda ixtira olunmuş ilk stereofonik simli musiqi aləti "Stereo Buta" da ekspozisiyada təqdim ediləcək.

Sərgidə hər bir musiqi alətini seyr etməklə yanaşı, onu dinləmək və ən əsası, həmin alətin ifa xüsusiyyətləri ilə tanış olmaq mümkün olacaq. Bu məqsədlə video və audioyazıların fərdi qaydada dinlənilməsi üçün ekran və avadanlıqlar quraşdırılıb.

Sərginin NASA bölümündə 1977-ci ildə "Voyacer 1" kosmik gəmisində dünya xalqlarına məxsus 27 melodiya ilə birgə kosmosa göndərilmiş Azərbaycan musiqisini də dinləmək mümkündür.

Muğam otağında Azərbaycanın tanınmış xanəndələrinin ifalarından ibarət videoçarxlar, ekspozisiyadakı monitorlarda isə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Azərbaycan muğamı, aşıq sənəti, tar və kamança ifaçılığına aid musiqilər təqdim edilir.

# Nuru paşa və Qafqaz İslam Ordusu rəsm əsərlərində

Sentyabrın 12-də Yasamal rayon Heydər Əliyev Mərkəzində Türkiyə Cümhuriyyətinin Azərbaycandakı səfirliyi və Azərbaycan Rəssamlar İttifaqının təşkilatçılığı ilə "Nuru paşa və Qafqaz İslam Ordusu" mövzusunda sərginin açılış mərasimi keçirildi.

Sərgi 1918-ci ilin 15 sentyabrında Osmanlı (Türkiyə) dövləti tərəfindən Azərbaycanın istiqlalına köməyə göndərilmiş Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 101-ci ildönümünə həsr olunmuşdu.

Sərginin açılışında çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral bildirdi ki, biz eyni mədəniyyəti, eyni taleyi paylaşan dövlətlərik. Bu, dünən də belə idi, sabah da belə olacaq: "101 il öncə Qafqaz İslam Ordusu da bu taleyi qardaş Azərbaycanla bölməyə gəldi. Qafqaz İslam Ordusunun 1918-ci ilin 15 sentyabrında Bakını azad etməsi Azərbaycanın müstəqilliyinə gedən yolun bir hissəsi idi. Bu gün Azərbaycanda 14 şəhidlikdə 1130 türk oğlu qardaş torpağın bağrında uyuyur. Biz dövlət başçılarımızın qardaşlıq siyasətinə var qüvvəmizlə dəstək olaraq bu qardaşlığımızı daim yaşatmalı və tariximizi, mədəniyyətimizi gələcək nəsillərə ötürməliyik".

Səfir çıxışının sonunda sərginin təşkilatçılarına təşəkkür etdi.



Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov qonaqları salamlayaraq sərginin əhəmiyyətindən söz açdı. Bildirdi ki, ötən il bu tarixi hadisə böyük möhtəşəmliklə qeyd olundu. Türkiyə-Azərbaycan dostluğu əbədiyaşardır. Atatürk və Heydər Əliyev kimi siyasətçiləri olan xalqlar daima bu siyasi öndərlərin qardaşlıq, dostluq siyasətini daha da möhkəmləndirməlidir.

Xalq rəssamı, Rəssamlar İttifaqının Qrafika şöbəsinin müdiri Arif Hüseynov sərgini gənc nəsillər üçün tarixi öyrənmək baxımından mühüm addım adlandırdı.

Layihənin kuratorları Elnurə və Aygün İsgəndərovalar sərginin təşkilinə dəstək olan səfirliyin əməkdaşlarına, Rəssamlar İttifaqına, Yasamal Rayon İcra Hakimiyyəti və rayon Heydər Əliyev Mərkəzinə minnətdarlıqlarını bildirdilər. Diqqətə çatdırıldı ki, sərgidə Azərbaycanın regionları da daxil olmaqla 35 rəssamın 40-dan artıq əsəri nümayiş olunur.

Daha sonra rəssamlara təşəkkür diplomları təqdim edildi. Sonda qonaqlar sərgi ilə tanış oldular.

**Lalə AZƏRİ**

## İşğal olunmuş ərazilərin turizm təbliğatı yolverilməzdir

"İşğal olunmuş ərazilərin, münaqişə zonalarının turizm məqsədli təbliğatı qətiyyən yolverilməzdir".

Bu barədə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən Dünya Turizm Təşkilatı Baş Assambleyasının 23-cü sessiyasındakı çıxışında danışıb. Agentlik sədri bildirib ki, beynəlxalq platformalarda, sərgilərdə bəzi ölkələr təxribatlara yol verir və bu halların qarşısı alınmalıdır.

Sentyabrın 9-da işə başlayan Dünya Turizm Təşkilatı Baş Assambleyasının 23-cü sessiyasında 120 ölkə təmsil olunur. Gündəlikdə turizmin təhsildə və yeni iş yerlərinin açılmasında rolu, beynəlxalq turizmi davamlı etməkdə innovasiya və sahibkarlığın əhəmiyyəti kimi mövzular yer alıb. Sessiya sentyabrın 13-də başa çatacaq.

## Özbəkistan Türk Şurasına üzv olmaq istəyir

Özbəkistan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv olmaq barədə qərar qəbul edib.

Bu barədə Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu bildirib. Onun sözlərinə görə, Türkmənistan da müşahidəçi dövlət kimi Türk Şurasına üzv olmaq niyyətindədir. Türkiyə XİN rəhbəri onu da qeyd edib ki, 19 sentyabrda Macarıstanın paytaxtı Budapeştdə Türk Şurasının Avropa mərkəzinin açılışı olacaq.

Xatırladaq ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü oktyabrın 14-15-də Bakıda keçiriləcək.

Türk Şurası türkdilli ölkələrin rəhbərlərinin 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış sazişə əsasən yaradılıb. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləridir.

# Ölkəmizin Rusiya regionları ilə əlaqələri inkişaf edir

## Mədəniyyət Nazirliyində Sverdlovsk vilayətinin nümayəndə heyəti ilə görüş

Sentyabrın 11-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Bakıda səfərdə olan Rusiya Federasiyası Sverdlovsk vilayətinin Mədəniyyət naziri Svetlana Uçaykinanı qəbul etdi.

Görüşdə Sverdlovsk vilayətinin Beynəlxalq və xarici iqtisadi əlaqələr nazirinin müavini İvan Detçenya, vilayətin qanunverici orqanının deputatı Mixail Zubarev, Sırset şəhər dairəsinin rəhbəri Dmitri Nikovski iştirak edirdi.

Əbülfəs Qarayev qonaqları salamlayaraq Azərbaycanın Rusiyanın Sverdlovsk vilayəti ilə əlaqələrində mədəniyyət sahəsinin də yer almasından məmnunluğunu bildirdi. Diqqətə çatdırdı ki, ölkəmiz Rusiyanın və dünyanın müxtəlif şəhərləri ilə mədəniyyət sahəsində müxtəlif layihələr reallaşdırır. Teatr, musiqi, rəssamlıq və digər sahələrdə təcrübə mübadiləsi həyata keçirilir. Yaradıcı gənclər birgə layihələrdə yaxından iştirak edirlər. Birgə tamaşalar, dirijorların orkestrlərlə çıxışları, aktyor və musiqiçilərin səfərləri bu əməkdaşlıq sahəsində mədəniyyətləri bir-birinə daha da yaxınlaşdırır.

Nazir Azərbaycanın zəngin mədəniyyəti haqqında qonaqlara məlumat verdi. Bildirdi ki, ölkəmizdə mədəni irsin qorunması və təbliği istiqamətində beynəlxalq əlaqələrin qurulmasına xüsusi önəm verilir.



Qarşılıqlı əlaqələrin perspektivlərindən söz açan Əbülfəs Qarayev vurğuladı ki, Azərbaycanda musiqinin müxtəlif janrlarını əhatə edən beynəlxalq festivallar keçirilir. Nazir Sverdlovsk vilayətinin incəsənət xadimlərini bu festivallarda iştiraka dəvət etdi. Bildirdi ki, 18 sentyabr – Milli Musiqi Günündə Bakıda XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı işə başlayacaq. Festivalda bir çox ölkələrdən tanınmış musiqiçilər iştirak edəcək.

Sverdlovsk vilayətinin Mədəniyyət naziri Svetlana Uçaykina səmimi qəbula görə minnətdarlığını bildirdi. Vurğuladı ki, Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi geniş nümayəndə heyəti Azərbaycana gəlib. Prezident İlham Əliyev nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub. Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən də Sverdlovsk vilayəti ilə əlaqələrin genişlənməsindən məmnunluq ifadə edilib: "Bu əlaqələr sırasında mədəniyyətə də önəm verilməsi bizləri çox sevindirir. İstərdik ki, Azərbaycanda bizi təkcə sənaye mərkəzi kimi deyil, həm də mədəniyyət mərkəzi olaraq tanısınlar".

Qonaq qeyd etdi ki, Sverdlovsk vilayətinin Azərbaycanla musiqi əlaqələri həmişə olub: "Bu əlaqələri daha da genişləndirmək istəyirik. Bir neçə gün əvvəl "Yekaterinburq Ekspo" tədbirinin təntənəli açılışında Ural Akademik Filarmoniyasının orkestri ilə birgə Azərbaycanın Xalq artisti Yusif Eyvazov və Rusiyanın Xalq artisti Anna Netrebko da səhnəyə çıxdılar. Tamaşaçılar onların çıxışlarını böyük sevgi və alqış ilə qarşıladılar".

Rusiyalı nazir Azərbaycanla mədəni əlaqələrin inkişaf etdirilməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğuladı.

Söhbət zamanı müvafiq təhsil ocaqları arasında əməkdaşlıq, o cümlədən teatr sahəsində çalışan gənc kadrların mübadiləsi, tədris ocaqlarının qarşılıqlı əlaqə imkanlarının nəzərdən keçirilməsi məsələləri müzakirə edildi. Bu xüsusda keçiriləcək görüşlərin, ustad dərslərinin bu münasibətlərin inkişafına təkan verəcəyi vurğulandı. Qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, Rusiya Federasiyasının Sverdlovsk vilayətinin Azərbaycana gələn geniş nümayəndə heyətinə regional qanunverici məclisin sədri, deputatları, vilayət hökumətinin üzvləri, Ural regionunun aparıcı ali təhsil müəssisələrinin rektorları, sahibkarlar daxildir.

**LALƏ**

# Bakıda Dünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı

*əvvəli səh. 1-də*

Bildirib ki, ölkədə KİV-lərin, xüsusən də yazılı medianın inkişafına mühüm təsir göstərən əsas addımlardan biri də 2008-ci ildə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın qəbul edilməsi və həmin sənədin tələblərinə uyğun olaraq 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması olub. 2009-cu ildən başlayaraq KİV layihələrinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən mediaya və jurnalistlərin ehtiyacı üçün on milyonlarla manat vəsait ayrılıb. Bundan başqa, Azərbaycan Prezidentinin sərəncamları ilə jurnalistlər üçün çoxmənzilli iki yaşayış binası tikilib istifadəyə verilib, üçüncünün tikintisi davam edir. Ötən illərdə yüzlərlə jurnalist fəxri ad və dövlət mükafatları ilə təltif olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş KİV-lərin ümumi sayı 5000-dən çoxdur. KİV-lərin kəmiyyət göstəricilərinə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında birincilər sırasındadır. Ölkədə 40-dək gündəlik, 200-dən çox həftəlik və aylıq qəzet-jurnal və digər media nümunələri nəşr olunur. 300-ə yaxın xəbər və analitik internet saytı, 20-yə yaxın informasiya agentliyi, rayonlarda və bölgələrdə isə 100-ə yaxın KİV fəaliyyət göstərir. Ölkəmizdə 11 ümumrespublika, 4 peyk, 17 kabel, 25 internet televiziyası və 13 regional televiziya, 14 radio fəaliyyətdədir. 2005-ci ildən İctimai Televiziya və Radio fəaliyyət göstərir. 50-dən artıq jurnalist təşkilatı qeydə alınıb, hazırda 30-dək təşkilat fəaliyyət göstərir. Mətbuat yayımını həyata keçirən müstəqil kommersiya şirkətlərinin sayı 23-ə çatıb.

İnternet və sosial şəbəkələrin fəaliyyəti haqqında məlumat verən Əli Həsənov deyib ki, ölkədə internet istifadəçilərinin sayı ümumi əhalinin 80 faizindən çoxdur və bu göstəricilərə görə Azərbaycan dünya ölkələri arasında birinci sıralardadır. Az. domenində qeydiyyatdan keçən internet saytlarının sayı 20 mini ötüb. Eyni zamanda vətəndaşların "Facebook", "Twitter", "YouTube", "İnstagram" kimi sosial şəbəkələrə sərbəst çıxışı təmin edilib. 10 milyon əhalisi olan Azərbaycanda sosial şəbəkə istifadəçilərinin sayı 3 milyon nəfərdən artıqdır. Hakimiyyət sosial şəbəkələrdə qaldırılan məsələlərə mütəmadi olaraq öz münasibətini bildirir, internetə məlumat mənbələrindən biri kimi yanaşır və ondan istifadə edir.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi deyib ki, son illərdə sosial şəbəkələr ictimai rəyin formalaşmasına təsir imkanlarını artırmağa çalışır. Lakin sosial şəbəkələrin rolunu müsbət xarakterizə edən cəhətlərlə yanaşı, mənfi meyillər də özünü göstərir. Sosial şəbəkələrin meydana gəlməsi bir tərəfdən söz və öz fikrini ifadə etmək azadlığının təmin olunmasında yeni perspektivlər açır. Digər tərəfdən, sosial şəbəkələrlə insan hüquqları arasındakı qarşılıqlı təsir bəzən xoşagəlməz vəziyyət yaradır. Məsələn, sosial şəbəkələrdə insanların şərəf və ləyaqətinin alçaldılması halları baş verir. Təəssüf ki, bu cür mənfi hallar bəzən transmilli medianın fəaliyyətində də özünü göstərir. Transmilli media qurumlarının verilişlərinin ölkədə yayılmasının müsbət cəhəti bundan ibarətdir ki, əhali dünyada baş verən proseslərlə bağlı operativ məlumatlar əldə etmək imkanı qazanır. Burada özünü göstərən mənfi xüsusiyyət isə ondadır ki, bəzən müxtəlif siyasi dairələrin və yaxud lobbi qruplarının təsiri ilə transmilli media qurumları ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışır, obyektivlik və bitərəflik kimi prinsiplərə zidd olaraq qərəzli, subyektiv informasiyalar yayır.



Əli Həsənov çıxışını bu fikirlərlə tamamlayıb: "Azərbaycan hakimiyyəti söz və mətbuat azadlığının, KİV-in inkişafının təmin edilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edir. Azərbaycan hələ 1998-ci ildə Mətbuat və İnformasiya Nazirliyini ləğv edib və mətbuatın dövlət tənzimlənməsindən birmənalı şəkildə imtina edib. Ölkə jurnalistləri öz ümumi toplantılarında vahid ictimai təşkilat olan Mətbuat Şurasını yaradıblar. Bu qurum uğurlu fəaliyyət göstərir və bugünkü möhtəşəm toplantı da bunun əyani sübutudur".

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral tədbirdə çıxış edərək iki ölkənin sıx tərəfdaşlığının media sahəsində də inkişaf etdiyini deyib.

BMT-nin Qlobal Kommunikasiyalar Departamentinin Azərbaycan üzrə təmsilçisi Rəşad Hüseynov, Avropa Şurasının Bakı ofisinin nümayəndəsi Pərvanə Bayramova və digər çıxış edənlər Dünya Mətbuat Şuraları Assosiasiyasının fəaliyyətindən, müasir medianın üzləşdiyi problemlərdən və qarşısında duran vəzifələrdən bəhs ediblər.

Dünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı sentyabrın 13-də başa çatacaq.

# Berlində Nəsiminin 650 illik yubileyi münasibətilə konsert

*əvvəli səh. 1-də*

Azərbaycanın dünya musiqisinə böyük töhfə verdiyini qeyd edən səfir R.Həsənov müsəlman dünyasında ilk operanın, o cümlədən ilk balet musiqisinin Azərbaycanda ərsəyə gəldiyini nəzərə çatdırıb. Rəngarəngliyi ilə seçilən Azərbaycan musiqi məktəbinin ənənəviliklə yanaşı, müasir formaları da özündə ehtiva etdiyini vurğulayıb. Azərbaycan muğamından söz açan diplomat ölkəmizdə muğamın klassik musiqi ilə sintez edildiyini qeyd edib. Azərbaycanda klassik musiqinin əsasının qoyulmasında xidmətlərinə görə dahi bəstəkar Üzeyir Hacıbəylini xatırladan səfir Firəngiz Əlizadə və onun həmkarlarının dahi bəstəkarın layiqli davamçıları olduğunu diqqətə çatdırıb.



Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadənin yaradıcılığından söz açan Ramin Həsənov onun 2008-ci ildə UNESCO-nun "Sülh artisti" adına layiq görüldüyünü, Azərbaycan mədəniyyətinin xaricdə tərənnüm edilməsinə, eləcə də dünya musiqisinə böyük töhfə verdiyini nəzərə çatdırıb. O, bəstəkarın Nəsiminin əsərləri əsasında ərsəyə gətirdiyi "Dərviş", "Zikr", "Nəsimi passionu" kimi əsərlərinin olduğunu bildirib.

Sonra konsert proqramı təqdim edilib.

Konsertdə Firəngiz Əlizadə ilə yanaşı digər Azərbaycan bəstəkarlarının – Aliyə Məmmədova, Səid Qəni, Tahir İbişov, Firudin Allahverdi, Cəlal Abbasovun böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin şeir və qəzəllərinin əsasında hazırlanmış əsərləri ifa olunub. Xanəndə – Qədim musiqi alətləri ansamblının solisti, Xalq artisti Teyyub Aslanov, eləcə də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Mütəllim Dəmirov, Əməkdar artist, soprano Afaq Abbasova tərəfindən əsərlər ifa edilib. İmadəddin Nəsimi obrazını Akademik Opera və Balet Teatrının balet truppasının aparıcı solisti Anar Mikayılov canlandırıb.

Konsertdə yerli mədəni ictimaiyyətin, Almaniyadakı səfirliyimizin və diasporumuzun nümayəndələri iştirak ediblər.

# "Mədəniyyət naminə elm"

Sentyabrın 11-də C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin "Mədəniyyət naminə elm" layihəsi çərçivəsində növbəti elmi seminar keçirilib.



Seminar "Məhv olan abidələr – unudulmayan tarix" mövzusuna həsr olunub.

Mərkəzin elmi katibi Cavid Əliyev giriş sözündə mövzunun aktuallığından, qarşıya qoyulan məqsədlərdən bəhs edib.

Çıxış edənlər xalqımızın milli-mənəvi sərvətinin, mədəni irsinin qorunması və təbliği ilə bağlı fikirlərini bölüşüblər.

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Asif Usubəliyev bildirib ki, əgər mədəni irslə məşğul olan mütəxəssislər yerli sakinlərlə müvafiq iş aparsalar, ölkəmizdə abidələrin qorunması və onların təbliği gələcək nəsil üçün bir örnək olar.

Mərkəzin əməkdaşlarından Hikmət Nəbili, Samirə Cəlilova "Mədəniyyətin qanuni aspektləri", Elnur Hacıbabayev "Lahıc misgərlik sənəti" adlı məruzələrini təqdim ediblər.

Tədbir çərçivəsində Mədəniyyət və İncəsənət Universitetinin Rəssamlıq fakültəsi tələbələrinin əl işlərindən ibarət sərgi də təşkil olunub.

# Yaradıcı qadınlara stimul verən layihə

Sentyabrın 11-də "Landmark" hotelində Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə 17-27 sentyabr tarixində Bakıda gerçəkləşəcək "Qız qalası. Qadın olmaq" müasir incəsənət festivalı ilə bağlı mətbuat konfransı keçirildi.

Tədbirdə Aİ-nin Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas, 1-ci müşaviri Denis Daniilidis, festivalın kuratoru, Əməkdar rəssam Sabina Şıxlinskaya və Avropa İttifaqına üzv dövlətlərin səfirlikləri iştirak edirdi.

Kurator Sabina Şıxlinskaya bildirdi ki, festivalın adı təsadüfən "Qız qalası. Qadın olmaq" seçilməyib. Bu mövzu Azərbaycan qadınlarının təməl hüquq və azadlıqlar, o cümlədən seçki hüququ əldə etməsinin 100 illiyi ilə əlaqəlidir. Layihənin proqramına müxtəlif səpkidə müasir incəsənət kontekstində beynəlxalq sərgi, ictimai incəsənət, videoart, poeziya gecəsi, tematik film nümayişləri, ustad dərsləri daxildir.

Aİ-nin Azərbaycan üzrə nümayəndəliyinin 1-ci müşaviri Denis Daniilidis bildirdi ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 101 yaşı tamam oldu. Bu respublika o dövrdə bir sıra Avropa ölkələrindən əvvəl qadınlara azadlıq vermişdi. Bu, təqdirəlayiq hal idi.

Qeyd olundu ki, festivalda Avstriya, Almaniya, Hollandiya, İsveç, İsveçrə, Macarıstan, Gürcüstan, Moldova, Ukrayna, İran, İsrail, Türkiyə, Argentina, Meksika, Braziliya və Kolumbiyadan sənət xadimləri, mədəniyyət mütəxəssisləri, muzey direktorları, kurator və rəssamlar iştirak edəcəklər.

Meksikanın Azərbaycandakı səfiri Xuan Rodriqo Labardini gender bərabərsizliyinin hələ də bir sıra ölkələrdə qalmasına təəssüfləndiyini bildirdi: "Bu məsələni həll etmək üçün biz təsirli addımlar atmalıyıq. Qadınlar haqqında yaradılan zərərli stereotipləri aradan qaldırmaq lazımdır. Mən bu festivalı Azərbaycanda qadın haqlarına verilmiş töhfə hesab edirəm".

Aİ-nin Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas qeyd etdi ki, Avropa Şurası və Avropa Birliyi insan haqlarını birləşdirən dəyərdir: "Bu təqdimat da bunun bir parçasıdır. Festival bizi qadınların problemləri haqqında düşünməyə, müsbət tendensiyalar ətrafında birləşməyə vadar edir".

Sonra media nümayəndələrinin sualları cavablandırıldı.



Qeyd edək ki, "Qız qalası. Qadın olmaq" layihəsi "İmagine-Avro Tolerantlıq" və "Fantaziya" mədəni irs festivallarından sonra Avropa İttifaqı nümayəndəliyi tərəfindən maliyyələşdirilən üçüncü böyük tədbirdir.

**Nurəddin MƏMMƏDLİ**

№65 (1650)
13 sentyabr 2019
www.medeniyyet.az

# “Azərbaycanın 7 möcüzəsi” layihəsi davam edir

May ayının sonlarında start verilən “Azərbaycanın 7 möcüzəsi” layihəsi davam etməkdədir. İDEA İctimai Birliyi və “Nature and History Production”ın birgə dəstəyi ilə reallaşan layihənin məqsədi milli mədəni və tarixi irsimizi qorumaq, Azərbaycan tarixinin mübahisəli və təhrifedilmiş faktlarını dövrün tarixi abidələri fonunda öyrənərək araşdırmaq, ölkəmizin ərazisində yerləşən tarixi, mədəni və təbii obyektlərin tanıdılmasına, qorunmasına və bərpa edilməsinə diqqət yönəltməkdir.




“Azərbaycanın 7 möcüzəsi” layihəsi ölkə daxilində və xaricdə Azərbaycanın tarixi, mədəni və təbii incilərini tanıtmaqla yerli və xarici turizmin, eləcə də həmin ərazilərdəki infrastrukturun inkişafına təkan verməyi qarşıya məqsəd qoyub.

Layihə üzrə foto və videogörüntüləri çəkilən abidələr haqqında məlumatlar yeddi.az saytına yerləşdirilir. Saytda “Azərbaycanın 7 möcüzəsi” layihəsinin səsverməsi də keçirilir. Səsvermə oktyabrın 18-də başa çatacaq.

Bu günlərdə layihə çərçivəsində Möminə xatın türbəsi, Əshabi-kəhf ziyarətgahı, Naxçıvanqala, Duzdağ Fizioterapiya Mərkəzi, Əlincəqala, Haçadağ, Xanəgah abidə kompleksi, Qarabağlar türbə kompleksi, Gülüstan türbəsi, Gəmiqaya, Cəlilkənd buxxanası və s. məkanlarda çəkilişlər aparılıb, tarixi və memarlıq abidələri “Azərbaycanın 7 möcüzəsi” seçimlərinə daxil edilib.

Layihənin yaradıcı direktoru Elnur Talıblı bildirib ki, keçirilən internet-səsvermə ilə Azərbaycanın 7 möcüzəsi seçiləcək. Seçilən həmin abidələr Azərbaycanın 7 möcüzəsi kimi tarixdə qalacaq.

Layihənin baş prodüseri İslam Əhmədov diqqətə çatdırıb ki, yeddi.az saytında “Öz möcüzəni əlavə et” bölməsi də var. Hər bir şəxs möcüzə hesab etdiyi bir abidəni əlavə edə bilər. Bundan başqa, yeddi.az saytında hər kəs 7 möcüzəyə səs verə bilər. İlk 25-likdə olan abidə finala vəsiqə alacaq və onların hər biri haqqında film və televiziya verilişləri hazırlanıb ictimaiyyətə təqdim olunacaq.

# “Sabah”da “Zəng” çalınacaq...

Xalq artisti, tanınmış aktyor, teatr xadimi, Türkiyənin Adana şəhərində Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzov “Sabah ” Yaradıcılıq Birliyinin istehsalı olan ikihissəli, tammetrajlı “Zəng” bədii filminin çəkilişlərində iştirak etmək üçün Bakıya gəlib.

Sentyabrın 11-dən əsərin baş qəhrəmanı Ataxan obrazını ifa edən Cahangir Novruzovun iştirakı ilə olan səhnələrin çəkilişinə start verilib.

“Zəng” bədii filminin ssenari müəllifi və quruluşçu rejissoru “Sabah” Yaradıcılıq Birliyinin rəhbəri Şərif Qurbanəliyevdir. Hüseynbala Mirələmov və Dilsuz Mustafanın hekayələrinin motivləri əsasında çəkilən filmin quruluşçu operatoru Eldar Məmmədov, rəssamı Rafael Əlizadə, bəstəkarı Firudin Allahverdidir.

Xalq artistləri Afaq Bəşirqızı, Səidə Quliyeva, Məbud Məhərrəmov, Əməkdar artist Qurban Məsimov, aktyorlar Ramin Şıxəliyev, Səbinə Məmmədova, Arif Kərimov və başqaları filmdə rol alıblar.

“Zəng”in prodüseri Xalq artisti Ramiz Həsənoğludur.

**L.AZƏRİ**

# İspaniyalı turistlər Lənkərandakı Xan evində

Lənkəranda turistlərin ən çox üz tutduğu məkanlardan biri də hazırda Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərən, tarixi mədəniyyət abidəsi olan Xan evidir. Lənkəranın ilk çoxmərtəbəli tarixi binasını bu yay xeyli əcnəbi turist ziyarət edib. 32 nəfərlik ispaniyalı turist heyəti muzeydə sərgilənən eksponatlarla böyük maraqla tanış olub.



Lənkəran xanları nəslindən Mirəhməd xan bu sarayı 1913-cü ildə tikdirib. Binanın layihəsi fransalı memar tərəfindən hazırlanıb, həm Qərb, həm də Şərq memarlıq elementlərini özündə birləşdirir.

İspaniyalı turist Pakio Simo ilk dəfədir Azərbaycana səfər edir. Bakıda Şirvanşahlar sarayını və Qız qalasını ziyarət edən qonaq deyib: “Biz, həmçinin Qobustan muzeyində də olmuşuq. Cənub bölgəsi, xüsusilə Lənkəran muzeyindəki qədim əşyalar da maraqlıdır. Milli geyimlər, məişət əşyaları hamısı keçmiş dövr haqqında fikir oyadır. Bütün bunlar bizdə xoş təəssürat yaradır”.

Marivel Qanderes: “İspaniyadan bura qrup şəklində gəlmişik. Bakı çox xoşuma gəldi. Öyrəndik ki, Lənkəran ölkənizin cənubunda, İranla sərhəddə yerləşir. Burada eksponatların hər birinə baxdıq. Muzey haqqında bizə maraqlı məlumatlar verildi. Bu haqda biz də öz ölkəmizdə dostlarımıza danışacağıq”.

Muzeyin fond müdiri İlham Quliyev deyib: “İl ərzində yerli turistlərlə yanaşı, xarici qonaqlar da muzeyimizi ziyarət edirlər. Cənub bölgəsinin etnoqrafiyası və milli folklorumuz, mətbəximizə aid nümunələr, bəzək və məişətdə istifadə olunmuş əşyalar onların diqqətini cəlb edir”.

Bu ilin 8 ayında Lənkəran Tarix-Diyarşünaslıq Muzeyini 19 mindən çox turist ziyarət edib. Onların 908 nəfəri xarici turistlərdir.

# “Belə tədbirlər xalqlarımızın biri-birini yaxından tanımasına xidmət edir”





*əvvəli səh. 1-də*

Səfir qeyd etdi ki, Bakının Fəvvarələr meydanında təşkil olunacaq mədəni tədbirlərə İndoneziyadan 100-dən çox incəsənət nümayəndəsi və iş adamı qatılacaq.

Tədbirdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev İndoneziyanın milli bayramı və festival münasibətilə Prezident İlham Əliyevin təbriklərini çatdırdı.

Həmçinin Buxaruddin Yusif Həbibinin vəfatı ilə əlaqədar Azərbaycan hökuməti adından İndoneziya xalqına başsağlığı verdi.

Nazir artıq ölkəmizdə ənənə halını almış İndoneziya mədəniyyəti festivallarının iki ölkə arasında mədəni əlaqələrin daha da inkişafına töhfələr verdiyini diqqətə çatdırdı: “İndoneziya səfirliyi son illərdə ölkəmizdə müxtəlif mədəni tədbirlər keçirir. Bu da xalqlarımız arasında əlaqələrin güclənməsinə təkan verir. Böyük İslam ölkəsi olan İndoneziyanın mədəniyyəti Azərbaycan xalqı üçün olduqca maraqlıdır. Ölkələrimiz arasındakı münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Hər iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir”.

Əbülfəs Qarayev bildirdi ki, bu festival Bakıda dost, qardaş İndoneziya xalqının mədəniyyəti ilə bağlı sayca dördüncü tədbirdir. Əvvəlki illərdə olduğu kimi, budəfəki festivalda da İndoneziyanın tarixi, mədəniyyəti, milli mətbəxi, adət-ənənələri ilə bağlı ən gözəl nümunələr ölkəmizdə təqdim edilir.

İndoneziya Respublikasının Nümayəndələr Palatası Parlamentlərarası əməkdaşlıq komitəsinin sədri Nurhayati Ali Asseqaf çıxış edərək iki ölkə arasında mədəni, iqtisadi və turizm sahəsində olan əməkdaşlığın səviyyəsindən məmnuniyyətlə danışdı. Belə tədbirlərin hər iki ölkədə təşkil olunmasının əhəmiyyətini qeyd edərək xalqlarımızın biri-birini yaxından tanımasına və əlaqələrin daha da inkişafına təkan verəcəyini vurğuladı.

Daha sonra İndoneziyanın incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olundu. Bu ölkənin musiqi, incəsənət və ədəbiyyat sahəsinin tanınmış nümayəndələrinin ifaları dinlənildi.

İndoneziya xalqına məxsus “ankluq” musiqi alətində ifalar, “Kuda lumpinq” adlanan atlılar dəstəsini əks etdirən ənənəvi “Yava” rəqsi təqdim olundu. Rəqs zamanı milli geyimlər, ağac və al-əlvan parçalardan hazırlanmış bəzəkli maskalar - “topenq kras” tamaşaçılara xoş təsir bağışladı. “Mocanq prianqan” rəqsi cayponqan janrındadır. Bu janr İndoneziyanın Qərbi Yava əyalətində məskunlaşmış sunda əhalisinin populyar ənənəvi rəqsidir. Bu xalqın milli sərvətlərindən olan “Randay” musiqi, ifa, rəqs, dram və silat döyüş sənətini özündə birləşdirən xalq teatrı ənənəsidir.

Mərasimdə təqdim olunan bənzərsiz musiqi və rəqslər bütün iştirakçıların marağına səbəb oldu. Festival sentyabrın 15-dək Fəvvarələr meydanında davam edəcək.

**FARİZ**

# İCOM-un beynəlxalq komitələrinin konfransları gələn il Bakıda keçiriləcək

Xəbər verdiyimiz kimi, Beynəlxalq Muzeylər Şurasının (İCOM) sentyabrın 1-dən 7-dək Yaponiyanın Kioto şəhərində keçirilən 25-ci Baş konfransında Azərbaycan nümayəndə heyəti də fəal iştirak edib.

İCOM-un üç ildən bir gerçəkləşən toplantısı bu dəfə “Muzeylər mədəniyyət mərkəzləri kimi: ənənələrin gələcəyi” devizi altında keçirilib. Toplantıya İCOM Azərbaycan Milli Komitəsinin 18 üzvü daxil olmaqla dünya ölkələrindən 4500-dən çox muzey mütəxəssisi qatılıb.

Milli Xalça Muzeyinin direktoru, İCOM Azərbaycan Milli Komitəsinin sədri Şirin Məlikova “Günəşin doğduğu ölkə və odlar diyarı – kəsişmə nöqtələri” mövzusunda məruzə ilə çıxış edib. Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Alla Bayramova “Musiqi həvəskarları klubu dayanıqlı mədəni fəaliyyətin nümunəsi kimi”, “Azərbaycan musiqi mədəniyyətinin inkişafında təhsilin rolu və muzeyin təhsilə töhfəsi” mövzularında məruzələrini təqdim edib. “İçərişəhər” Muzey Mərkəzinin Ekspozisiyalar və beynəlxalq əlaqələr şöbəsinin daimi ekspozisiyalar üzrə sektor müdiri Həcər Alxasovanın “İçərişəhərdə şəhər arxeologiyası” mövzusunda məruzəsi, müstəqil kurator Əsli Səmədovanın “Qadın səsi: ənənə, moda və zəriflik Qafqazda və onun hüdudlarından kənarda”, “Milli irsimiz layihəsinin sərgiləri” adlı məruzələri də dinlənilib.



Konfrans çərçivəsində Şirin Məlikova xüsusi dəvətlə gənc muzey mütəxəssisləri üçün təşkil olunmuş muzey idarəçiliyi mövzusunda birsaatlıq mentor sessiyanı aparıb. Həcər Alxasova İCOM-un Tarix və Arxeologiya Muzeyləri və Kolleksiyaları (İCMAH) üzrə Beynəlxalq Komitəsinin, Milli Xalça Muzeyinin baş mütəxəssisi Rəna Zeynalova İCOM-un Etnoqrafiya Muzeyləri və Kolleksiyaları üzrə Beynəlxalq Komitəsinin (İCME) idarə heyətinin üzvü seçilib.

Qeyd edək ki, tədbirdə təşkilatın üç beynəlxalq komitəsinin – İNTERCOM və İCME-nin birgə illik konfransının, eləcə də İCLCM-in illik konfransının 2020-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı irəli sürülən təklif qəbul olunub.

# Tərəfdaş və hədiyyəni harada axtararlar? – Sərgidə!

Sərgi bir anlayış olaraq nə qədər çoxmənalı olsa da, məğzi birdir: olanı göstərmək, təklif etmək, olmayanı axtarmaq.

Sentyabrın 12-də “Bulvar Hotel Baku”da başlayan II Azərbaycan Beynəlxalq hədiyyələr və promo məhsullar (“Gift & Promo Fair 2019”), reklam və çap işləri (“AdPrint 2019”) sərgiləri də olan nailiyyətləri göstərmək, yeni imkanlar təklif etmək və həm də axtardığını tapmaq niyyəti daşıyır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) də dəstək göstərdiyi iki sərgidə 50-dək yerli və xarici şirkətin, o cümlədən qadın sahibkarların məhsulları və əl işləri, sosial sahibkarlıq layihələri təqdim olunur. “Hədiyyələr və Promo Məhsulları Sərgisi”nin kataloqunda Azərbaycanla yanaşı, Rusiya Federasiyası və Türkiyə Respublikası şirkətlərinin də adı keçir.

Açılışda çıxış edən KOBİA-nın idarə heyətinin sədri Orxan Məmmədov ölkəmizdə qeyri-neft sektorunun inkişafı və iqtisadi sahələrin genişlənməsi üçün bu cür sərgilərin çox mühüm olduğunu dedi. Bildirdi ki, artıq ayrı-ayrı sahələrdə fəaliyyət göstərən kiçik və orta biznes subyektlərinin sayı davamlı olaraq artır: “Maraqlıdır ki, bu inkişafda ənənəvi xalq tətbiqi-dekorativ sənəti ilə məşğul olan fiziki şəxslərin, ailə biznesinin xüsusi rolu var. Elə biz də bu tədbirdə Azərbaycan milli mədəniyyətini, xalq sənətkarlığını yaşadan iştirakçıları daha çox aradıq.



Axı, hətta gündəlik işlədilən ev əşyalarının, mənzil və ofis dizaynına millilik duyğusu, sərhədlərimizdən kənarda isə Azərbaycan koloriti bəxş edən bəzək və suvenirlərin istər fərdi, istərsə də kütləvi istehsalı vacibdir”.

“ABAD” – Ailə Biznesinə Asan Dəstək mərkəzinin loqosu ilə sərgilənən milli naxışlı kaşı çay servizləri, interyer bəzəkləri, kiçik xalça məmulatları ziyarətçilər arasında daha çox diqqəti cəlb edirdi. Qurum təmsilçisindən öyrənirik ki, “abad”çılar sərgiyə əlliyədək çeşiddə məhsul çıxarıblar.

Zaman keçdikcə məhsul çeşidini artıran “İ love Baku” ilk milli suvenir brendinin stendinə də əcnəbi ziyarətçilər daha çox maraq göstərirdilər.

“Rəsm” zərgərlik brendinin məhsullarına tamaşa edən əcnəbi qonağın rus dilində fikirlərini izah etməyə çalışdığını eşidən kimi tanışlıq fürsətini ötürmürük. Ondan nə ilə daha çox maraqlandığını soruşuruq. Demə, özünü “sadəcə Con” kimi təqdim edən amerikalı ziyarətçi qonaq sayılmazmış. Bakıda ofisi olan əcnəbi şirkətdə çalışan Con Azərbaycana da, onun mədəniyyətinə də kifayət qədər bələddir. Bu gün isə gələn həftə doğum gününü qeyd edəcək xanımı Saraya eksklüziv hədiyyə tapmaq niyyətindədir. Sözarası onu da eşitdirir ki, rus dili bilgisi əvvəl çalışdığı Rusiya şirkətində keçən illərin yadigarıdırsa, Sara Azərbaycan dilində ondan xeyli yaxşı danışır, kiçik qızı Lora isə Bakıda doğulub və dilimizi bilir.

Cona xoş arzularımızı bildirib digər stendə yaxınlaşırıq. Qulaq müsafiri olduğumuz söhbətdən başa düşürük ki, ziyarətçi poliqrafiya və reklam işləri ilə məşğul olan şirkətin nümayəndəsinə öz xidmətini, daha doğrusu, nəfis bloknotların üz qabığı üçün öz rəsmlərini təklif edir. Belə sərginin ən vacib cəhətinin tərəfdaş tapmaq olduğunu nəzərə alıb söhbətə qarışmırıq.

Yeri gəlmişkən, reklamçıların, öz səhifələrində mütaliəlik yazılardan daha çox yeni məhsulların reklamına yer verən yerli və Rusiya dərgilərinin sərgidə tez-tez gözə dəyməsi müsbət haldır: reklam bazarının gur fəaliyyəti istehsaldan asılıdır. Eyni məkanda paralel keçən “AdPrint 2019” sərgisində də sahənin yenilikləri, eləcə də reklam və çap işləri sahəsinin innovativ məhsul və xidmətləri təqdim edilir. Sərgidə vizual reklam texnologiyaları, reklam xidmətləri, reklam qablaşdırması və etiketlər, çap-poliqrafiya xidmətləri, avadanlıq və ləvazimat çeşidləri də boldur.

Əslində, bu sayaq sərgilərin bəhrəsi bir neçə saatın içində bilinmir. Gələcək əməkdaşlıq təkliflərinin dəyərləndirilməsi, seçilməsi üçün zaman lazımdır.

Sərgi sentyabrın 13 və 14-də davam edəcək.

**Gülcahan MİRMƏMMƏD**

# Yeni opera: “Məhsəti”

## Hələlik əsərin müəllifini dinləyək



…İlk dəfə onun adını kimdən eşitdiyim dəqiq yadımda deyil, amma haqqında nə deyildiyini unutmamışam: “Arif Məlikovun ən sevimli, gələcəyinə çox inandığı tələbələrindəndir”. Elə həmin vaxtdan da hər dəfə “çıxış edir (ilk musiqi təhsilini fortepiano ixtisası üzrə alıb, əsərlərini özü də ifa edir), ya da müəllif – Pikə Axundova” eşidəndə həmin təqdimatı xatırlayıram.

Təəssüf ki, bu gün ciddi musiqi ilə məşğul olan bəstəkarlar istedad və zəhmətlərinə görə geniş ictimaiyyət, dinləyici-tamaşaçı auditoriyasında layiq olduqları qədər tanınmırlar. Odur ki, Pikə xanımla müsahibəyə səbəb olan sənət hadisəsi barədə danışmazdan öncə onu oxuculara bir qədər geniş tanıtmaq istərdik.

Pikə Axundova Bülbül adına Orta İxtisas Musiqi Məktəbini üç ixtisas – fortepiano, bəstəkarlıq və nəzəriyyə sinifləri üzrə bitirib. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) isə fortepiano və bəstəkarlıq üzrə ali təhsil alıb. Daha sonra nəzəriyyə üzrə aspiranturanı bitirib, hazırda BMA-nın Bəstəkarlıq kafedrasının müəllimidir. “Muğam dramaturgiyasında qeyri-xətti inkişaf prinsiplərinin rolu” mövzusunda dissertasiya üzərində çalışır.

Məktəbli ikən şəhər, respublika və beynəlxalq miqyaslı müsabiqələrdə iştirak etməyə başlayıb. 2000-ci ildə Sankt-Peterburqda keçirilən pianoçu-bəstəkarların I beynəlxalq müsabiqəsində qalib gəlib, dörd ildən sonra, bu dəfə tələbə kimi, həmin müsabiqədə uğurunu təzələyərək laureat adını qazanıb. İştirak etdiyi beynəlxalq festivallardan mükafatla qayıdıb. 2005-ci ildə Gənclər və İdman Nazirliyinin mükafatını (“İlin ən yaxşı gənc bəstəkarı”) qazanıb.

İki simfoniya, fortepiano ilə orkestr üçün konsert kimi daha bir neçə irihəcmli musiqi əsərinin müəllifi Pikə Axundovanın dahi Məhəmməd Füzulinin “Su” qəsidəsinə bəstələdiyi oratoriya bu ilin mart ayında İstanbulun Camal Rəşid Rey salonunda Türkiyə Prezident Orkestrinin baş dirijoru Rəngim Gökmənin idarəsilə ifa olunub. Simfonik orkestr üçün türk və Azərbaycan milli musiqi alətlərindən istifadə edilməklə bəstələnmiş bu əsər böyük maraqla qarşılanıb.

İndisə, budur, bəstəkar Pikə Axundovanın adını milli musiqi sənətimizə daha irihəcmli musiqi əsərinin müəllifi kimi yazacaq bir hadisənin izinə düşüb onunla söhbət edirik.

Gələn həftə başlayacaq XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalında bizi təkcə məşhur xarici musiqiçilərlə görüş, maraqlı əsərlərin ifası gözləmir. Bizi həm də yeni opera ilə tanışlıq gözləyir. Festivalın anonslarından xəbərdar olduğumuz kimi, sentyabrın 27-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Pikə Axundovanın “Məhsəti” operasının premyerası olacaq.

Beləliklə, bu premyeradan sonra gənc müəllifi operası səhnəyə çıxan üçüncü azərbaycanlı xanım bəstəkar kimi də təqdim edə biləcəyik.

**- Pikə xanım, yaradıcılığınıza az-çox bələd olduğumuzdan nə vaxtsa sizi iri səhnə əsərinin müəllifi kimi tanıyacağımıza şübhəmiz olmasa da, hər halda “Məhsəti” operasının premyerası xəbəri bizim üçün bir qədər gözlənilməz oldu. Hər halda böyük musiqili səhnə əsərinin yazılması, hazırlanması uzun vaxt tələb edir və bu, mədəniyyət cameəsinin nəzərindən yayınmır. Amma “Məhsəti”nin birbaşa tele-anonsunu gördük…**

- Bilirsiniz, bütün bəstəkarların yaradıcılığında elə bir məqam yetişir ki, o, irihəcmli səhnə əsəri yazmağı təcrübədən keçirmək istəyir. Tələbə bəstəkar adətən kiçik musiqi əsərlərini yazmaqla sənətə başlayır və getdikcə simfonik janrlara keçir. Müstəqil yaradıcılıq mərhələsində bəstəkar özü hiss edir ki, səhnə əsəri yazmağın zamanı yetişib. Mən də həmin zamanın yetişdiyini hiss edirdim, həm də mənə elə gəlirdi ki, ilk səhnə əsərim balet olacaq. Bilmirəm, bəlkə də bu hiss Arif Məlikovun tələbəsi olmağımdan irəli gəlirdi… Amma iş elə gətirdi ki, ilk səhnə əsərim opera oldu. Üstəlik, bu əsərin ideyası da mənim deyil, sənət dostum, gözəl vokalçı, Əməkdar artist, “Mədəniyyət” kanalının baş direktoru Ramil Qasımovundur.

**- Maraqlıdır…**

- Amma əsərin baş qəhrəmanı olaraq Məhsətinin seçilməsi təsadüfi deyil. Hələ 2013-cü ildə Məhsəti Gəncəvinin 900 illik yubileyi qeyd ediləndə onun sözlərinə musiqi bəstələnməsi də tədbirlər planına daxil idi. Təəssüf ki, Məhsətinin rübailərinə indiyədək az musiqi bəstələnmişdi. Mən onun rübailərinə mahnı və romanslar silsiləsi yazdım. Məhsəti yaradıcılığına bələd olsam da, məhz həmin silsilə üzərində işləyərkən bu şairəni özüm üçün yenidən kəşf etdim. Onun daxili dünyasına aşiq oldum. Həmin mahnıları Xalq artisti Alim Qasımov qızı Fərqanə xanımla, xalq artistləri Azər Zeynalov, Samir Cəfərov, Aygün Bayramova, Nəzakət Teymurova, gənc müğənnilərimiz Səbinə Ərəbli,




Güllü Muradova oxudular və həmin ifalar diskə yazıldı. Mahnılardan ikisini də Ramil Qasımov ifa etmişdi. Elə ötən ilin sonlarında Ramil müəllim təklif etdi ki, neçə ildir Azərbaycanda opera yazılmır, “Məhsəti” operasını da siz yazın, çünki siz Məhsətinin lirikasını çox yaxşı duyursunuz, onun yaradıcılığına da bələdsiniz…

**- Beləcə, opera əsəri üçün çox qısa müddətdə…**

- Elədir, bu ilin əvvəlindən işləməyə başladıq və artıq əsər hazırdır, son məşqləri gedir… Bu ilin geridə qalan aylarında mən dayanmadan, fasiləsiz, sutka ərzində digər işlərə, istirahətə cüzi vaxt ayırmaqla bu əsəri yazmışam. Böyük həvəslə, böyük şövqlə işlədim.

**- Görünür, Məhsəti Gəncəvi özü sizin ilham pəriniz olub…**

- Yəqin...

**- Hər hansı yeni səhnə əsərinin teatr səhnəsinə çıxışı əvvəlcə inzibati-texniki mərhələlərdən keçir deyə, tamaşanın səhnəyə çıxması hətta bir neçə il yubana bilir.**

- Bəli, elə buna görə də tamaşa “Mədəniyyət” televiziya kanalının təşkilati dəstəyi ilə hazırlandı. Əsər “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin Niyazi adına Simfonik orkestrinin müşayiəti ilə səslənəcək. Əsas partiyaları isə təbii ki, Opera və Balet Teatrının solistləri ifa edəcəklər. Titul partiyasını Əməkdar artist İnarə Babayeva, onun sevgilisi Əmir Əhmədin partiyasını Ramil Qasımov, Sultan Səncəri Taleh Yəhyayev, Xanəndə qızı Fərqanə Qasımova oxuyacaqlar. Tamaşada gənclərə üstünlük verilib: Fəhmin Şahyar, Fəxri Kazım-Nicat, İlqar Məclumov da tamaşada çıxış edəcəklər.

**- Libretto müəllifi, rejissor…**

- Librettonu Leyla Qədirzadə yazıb, “Məhsəti” onun operada ilk işi olsa da, indiyədək müzikl üçün libretto yazıbmış. Həm də Leyla xanım qəhrəmanların ariyalarında da Məhsətinin rübailərindən istifadə edib. Tamaşaya ikinci təhsili teatr rejissorluğu olan “Məhsəti”miz – İnarə Babayeva quruluş verib. Baletmeyster Xalq artisti Təranə Muradova, geyim üzrə rəssam Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfovadır. Ramil müəllim Məhsəti kimi dövrünü qabaqlamış, poetik ruhu və həyata baxışı ilə fərqlənən gözəl bir qadının obrazını operada təcəssüm etdirmək üçün yaradıcı qadınları bir layihədə birləşdirib.

Mədəniyyət Nazirliyinə də minnətdaram ki, bizim layihəmizi dəstəklədi və onu Üzeyir Hacıbəyli adına böyük beynəlxalq festivalının proqramına daxil etdi.

**- Bayaq dediniz ki, nə vaxtsa balet yazacağınızı düşünürdünüz…**

- Düşünürdüm, amma… Mən bəstəkarlığa vokal əsərləri yazmaqla başlamışam, hər zaman da yazmışam. Opera üzərində iş isə çox məsuliyyətli, çoxşaxəli bir işdir. Sən təkcə tamaşa musiqisi yazmırsan, özünü bir aktyor kimi qəhrəmanının yerinə qoyursan, onun hisslərini yaşayaraq, səsinin xüsusiyyətlərini nəzərə alaraq musiqini yazırsan. Məhsətinin üzərində çalışanda orkestrləşdirmə fənnindən müəllimim olmuş görkəmli bəstəkar Aqşin Əlizadə yadıma düşdü. Rəhmətlik Aqşin müəllim deyirdi ki, mən “Babək” baletini bitirəndən sonra keçirdiyim stressdən neçə ay müalicə olundum.

**- Müəlliminizi xatırladınız… Arif müəllim sizin opera yazdığınızı bildi?**

- Təəssüf ki, yox… Mən əsər üzərində işləyəndə vəziyyəti ağır idi, telefona da cavab vermirdi. Yalnız həyat yoldaşı ilə ondan xəbər tuturdum. Arif müəllim neçə dəfə yatağa düşmüşdü və xəstəliyə qalib gəlmişdi. Mən də gözləyirdim, inanırdım ki, Arif müəllim yenə ayağa qalxacaq və mənim operamın premyerasında iştirak edəcək… Təəssüf…

**- Qismət…**

- Bilirsiniz, bu dönəmlər çox çətindir. Sentyabrın 13-ü Arif müəllimin doğum günüdür. O imkan verməzdi ki, biz onun adına süfrə açaq, xüsusi təbrik edək. Amma bütün kafedra 15 sentyabrda yeni dərs ilinin başlamasını bəhanə edib onun doğum gününü qeyd edərdi. Bu il isə ilk dəfə yeni dərs ilini onsuz başlayacağıq.

**- Həyat davam edir. Görkəmli sənətkarlar öz əsərlərində, böyük müəllimlər həm də öz tələbələrinin üzağardan əməllərində yaşayırlar. Sizin operanız Arif Məlikovun ruhuna, ad gününə ən böyük hədiyyəniz olacaq. Premyerada görüşərik.**

**Gülcahan MİRMƏMMƏD**

# Mövsüm “Solğun çiçəklər”lə başlasa da…

Sentyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrı 51-ci mövsümün ilk tamaşasını oynayacaq. Kollektiv 120 illiyi ölkə başçısının sərəncamı ilə qeyd edilən böyük dramaturq Cəfər Cabbarlının “Solğun çiçəklər” dramının premyerasını təqdim edəcək.

Elşən Zeynallının quruluş verdiyi tamaşada əməkdar artistlər Cəlal Məmmədov (Bəhram), Sədaqət Nuriyeva (Gülnisə), İzaməddin Bağırov (Əbdül), aktyorlar Şəhla Məmmədova (Sara), İlahə Səfərova (Pəri), İlqar İbrahimov (Hacı) çıxış edirlər. “Solğun çiçəklər”in quruluşçu rəssamı Şahin Hüseynovdur.

Bazar günü, sentyabrın 22-də oynanılacaq tamaşa da yubiley münasibətilə hazırlanıb. Teatrın 50-ci, yubiley mövsümünün sonunda təhvil verilmiş “Sevgilim Sumqayıt” tamaşası gənclik şəhərinin bu il qeyd edilən 70 yaşına teatrın hədiyyəsidir. Əsərin müəllifi Əli Əmirli, quruluşçu rejissoru teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Elşən Hacıyevdir. Tamaşada əməkdar artistlər Fəranə Musayeva, İlahə Səfərova, Cəlal Məmmədov, Xatirə Süleymanova, aktyorlar Kamran Muradlı, Şəms Abdullayeva, İlahə Səfərova və b. çıxış edirlər.



Sentyabrın son həftəsonunda da iki tamaşa göstəriləcək. Ayın 28-də Mirzə Fətəli Axundzadənin “Hacı Qara”sı səhnəyə çıxacaq. Rejissor Firudin Məhərrəmovun rəssam Mustafa Mustafayevlə yaradıcılıq tandeminin məhsulu olan bu tamaşada Akif Mirzəyev Hacı Qara, Habil Xanlarov Heydər bəy, İlahə Səfərova Sona xanım, Əməkdar artist İlahə Səfərova isə Tükəz rollarında çıxış edirlər.

Bazar günü, ayın 29-da isə teatr öz repertuarındakı xarici dramaturgiya nümunələrindən birini təqdim edəcək. Ötən əsrin məşhur Amerika dramaturqlarından olan Con Patrikin çox populyar “Əziz Pamela” (ikinci adı – “Qocanı öldürməliyik”) pyesi əsasında hazırlanmış tamaşada əməkdar artistlər İlahə Səfərova, Rauf Atakişiyev, Cəlal Məmmədov, Sədaqət Nuriyeva, İzaməddin Bağırov və aktyor Yalçın Səlimov məşğuldur.

# “Bremen musiqiçiləri” bu dəfə rus dilində…

Gənc Tamaşaçılar Teatrında Y.Etin və V.Livanovun “Bremen musiqiçiləri” pyesi əsasında hazırlanan eyniadlı tamaşa oktyabrın 13-də rus dilində təqdim ediləcək.



Teatrdan bildirilib ki, quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov olan tamaşanın səhnə tərtibatçısı Telman Şıxıyev, musiqi tərtibatçısı İradə Muradova, rejissoru Gülnar Hacıyevadır. Rolları aktyorlar Anar Seyfullayev, Aygün Fətullayeva, Elşən Şıxəliyev, Bəhram Həsənov, Xaliq Bəkirov, Eyvaz İbrahimov və başqaları ifa edəcək.

“Bremen musiqiçiləri” iki gəncin saf sevgisindən bəhs edən həzin bir nağıldır. Fərqli nəsillərin maraq göstərdiyi, motivləri əsasında məşhur cizgi filmi də çəkilmiş bu əsər saf duyğular, isti hisslər yaradır.

# Əməkdar artist yenə tək, “Kontrabas”da…

Oktyabrın 4-də Gənc Tamaşaçılar Teatrının kiçik səhnəsində Patrik Züskindin “Kontrabas” tragikomediyasının növbəti nümayişi olacaq.

Monotamaşanın quruluşçu rejissoru Xalq artisti İrina Perlovadır. Səhnə əsərində Əməkdar artist Şövqi Hüseynov çıxış edir.

“Kontrabas” Patrik Züskindin intellektual, fəlsəfi və özünə istehza notları ilə zəngin nəsr əsəridir. Tamaşanın qəhrəmanının – musiqiçinin gözlə görünməyən opponentləri və tərəfdaşları, yəni daxili monoloq-dialoqunun personajları daim onun yanındadır.

# Bakı Uşaq Teatrı “Arzular”la Nevşehirdə

Xəbər verildiyi kimi, 9-11 sentyabr tarixində “Nəsimi ili” çərçivəsində Türkiyənin Nevşehir şəhərində Azərbaycanın Təhsil Cəmiyyətinin təşəbbüsü, Hacı Bektaş Vəli Universiteti və Azərbaycan Universitetinin birgə təşkilatçılığı ilə şairin 650 illik yubileyinə həsr edilən elmi simpozium keçirilib.

Tədbirə Bakı Uşaq Teatrı da qatılıb. Teatr açılış mərasiminin bədii hissəsində Cənubi Azərbaycanı təmsil edən musiqi qrupu ilə səhnəni paylaşıb. Arzu Soltan və Cəlal Babanın “Arzular”, Nərminə Məhərrəmova və Qurban Əhmədovun “Fly to stay alive” kompozisiyaları simpozium iştirakçıları və tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

# “Yeddi nar çubuğu”, “Qoçaq Əhməd”, “Məlikməmməd”…

A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında “Yeddi nar çubuğu” xalq nağılımız əsasında tamaşa hazırlanır.



Yeni mövsümdə təqdim olunacaq tamaşanın səhnələşdirəni Zülfüqar Rüfətoğlu, quruluşçu rejissoru Qurban Məsimov, quruluşçu rəssamı Rəvanə Yaqubova, bəstəkarı Vüqar Camalzadədir.

Azərbaycan Dövlət Kukla Teatrında klassik tamaşaların yeni səhnə yozumunda təqdim olunması da artıq ənənə halını alıb. Bu işin davamı olaraq repertuarda xüsusi yeri olan, lakin özünün tərtibat baxımından ömrünü başa vuran bir sıra tamaşalar yeni versiyada hazırlanır.

Teatrdan verilən məlumata görə, uzun müddət repertuarda olan “Qoçaq Əhməd” və “Məlikməmməd” tamaşaları yeni səhnələşdirmə və quruluşda balacaların ixtiyarına veriləcək.

# “Təbriz teatrı və Böyükxan Naxçıvanski”

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanovun “Təbriz teatrı və Böyükxan Naxçıvanski” adlı monoqrafiyası işıq üzü görüb.




Monoqrafiyada Təbriz teatrı haqqında aşkara çıxarılan yeni tarixi faktlar tədqiqata cəlb edilib. Bu mədəniyyət ocağının görkəmli aktyor və rejissorları barədə məlumat verilib, Təbrizdə teatr dəstələrinin yaranması və fəaliyyətindən bəhs olunub.

Yeni nəşrdə tanınmış mədəniyyət xadimi, teatr fədaisi Böyükxan Naxçıvanskinin keşməkeşli ömür və sənət yoluna nəzər salınıb, onun Təbriz teatrının inkişafındakı səmərəli fəaliyyəti işıqlandırılıb. Sənətkarın quruluş verdiyi tamaşaların və oynadığı obrazların əsas məqsəd və qayəsinin maarifçilik ideyalarının xalq arasında təbliği olduğu göstərilib.

Naxçıvanın teatr xadimlərinin ötən əsrin əvvəllərindəki fəaliyyətini tədqiq edən müəllif monoqrafiyada həmin dövrün teatr proseslərinə dair əhəmiyyətli arxiv materiallarını oxucuların ixtiyarına verir. Nəşrdə tədqiqatçı tərəfindən aşkar olunmuş nadir fotoşəkillər də əksini tapıb.

№65 (1650)
13 sentyabr 2019
www.medeniyyet.az

# Xalq rəssamı Tahir Tahirov vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Tahir Tahirov 2019-cu il sentyabr ayının 12-də ömrünün 72-ci ilində vəfat edib.



Tahir Tahirov 30 may 1948-ci ildə Bakı şəhərində anadan olub. 1973-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rəssamlıq fakültəsini bitirib.

Milli rəssamlığımızın zəngin ənənələrini öz uzunillik yaradıcılığında əks etdirən Tahir Tahirov təsviri sənətimizin inkişafı yolunda yorulmadan çalışan bənzərsiz rəssam idi. Bir çox teatr tamaşalarının mahir quruluşçu rəssamı kimi də böyük şöhrət qazanıb. C.Verdinin "Traviata", C.Rossininin "Sevilya bərbəri", R.Leonkavallonun "Payatsı", F.Əmirovun "Sevil" operaları, P.Çaykovskinin "Romeo və Cülyetta", Q.Qarayevin "Don Kixot", "Leyli və Məcnun", T.Bakıxanovun "Xəzər balladası" balet tamaşalarına, A.N.Ostrovskinin "Müdriklər", İ.Əfəndiyevin "Büllur sarayda", C.Cabbarlının "Od gəlini", "Aydın", S.Vurğunun "Fərhad və Şirin", N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü", H.Orucovun "Bu dünyanın adamları", B.Vahabzadənin "Cəzasız günah", Elçinin "Poçt şöbəsində xəyal", H.Həsənovun "Brüsseldən məktublar" və s. tamaşalara, habelə bir çox dövlət əhəmiyyətli tədbirlərə, yubiley mərasimlərinə uğurlu səhnə tərtibatı verib. Rəssamın məşhur opera və balet tamaşaları üçün böyük ustalıqla yaratdığı səhnə geyimlərinin eskizləri də Azərbaycan təsviri sənətinə şöhrət qazandırıb və bir sənətkar kimi doğma Vətəninə sonsuz məhəbbətin təzahürünə çevrilib.

Tahir Tahirovun yaradıcılığı Azərbaycan təsviri sənətinin qiymətli nümunəsi kimi milli mədəniyyətimizin təbliğinə xidmət edib. Onun fəaliyyəti hər zaman Azərbaycan dövlətinin diqqətində olub. 2002-ci ildə Əməkdar rəssam, 2013-cü ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülməsi bunun bariz nümunəsidir.

Tahir Tahirovun əziz xatirəsi bütün sənətsevərlərin qəlbində əbədi yaşayacaq.

Allah rəhmət eləsin.

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi**

# Elm Tarixi İnstitutu beynəlxalq əlaqələrini genişləndirir

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Elm Tarixi İnstitutunda dəyirmi masa keçirilib. Dəyirmi masada Rusiya Elmlər Akademiyasının Təbiət Elmləri və Texnika Tarixi İnstitutunun Sankt-Peterburq filialının direktoru, sosiologiya üzrə fəlsəfə doktoru Nadejda Aşeulova da iştirak edib.

AMEA-nın Elm Tarixi İnstitutunun direktoru Məryəm Seyidbəyli rusiyalı qonağa elm müəssisəsinin fəaliyyəti haqqında məlumat verib.

Tədbirdə Rusiya-Azərbaycan münasibətlərinin tarixi, ikitərəfli münasibətlərin inkişaf təmayülləri, ölkəmizin regional strateji rolu və həyata keçirilən proqramlardan da bəhs olunub.

Dəyirmi masada, həmçinin iki elmi müəssisə arasında əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub, birgə layihələrin təşkili yönündə ilkin təkliflər səsləndirilib.

Nadejda Aşeulova Elm Tarixi İnstitutu ilə birgə layihələrin icrasında və elmi araşdırmaların aparılmasında maraqlı olduqlarını deyib. Sonda rusiyalı alimə kitablar hədiyyə edilib.

# "Xocalılı Ləfixanım" filminin təqdimatı

Xocalı faciəsinin dəhşətlərini yaşayanlardan biri də Salman Abbasovun ailəsi olub. 1992-ci il fevralın 26-na keçən gecə onlar qarlı aşırımlardan, meyitlərlə dolu meşədən keçərək erməni quldurlarının əlindən canlarını qurtarmağa çalışıblar.

Hücum o qədər qəfil olub ki, ailə üzvləri evdən çıxanda ayaqqabılarını geyinməyə də imkan tapa bilməyiblər. Ailənin başçısı Salman Abbasov, onun həyat yoldaşı Bəsti, oğlanları Mərkəz və Şakir, qızları Məruzə, Mənsurə və Ləfixanım doqquz gün ayaqyalın meşədə gizləndikdən sonra düşmən əsgərləri onları əsir götürüblər. Əsirlik müddətində dəhşətli işgəncə və məhrumiyyətlərə məruz qalan ailə üzvləri 19 gün ac-yalavac azab çəkdikdən sonra geri alınıblar. Əsirlik həyatından sonra üç ay Bakıda xəstəxanada müalicə alan ata-ana və qızlarının ayaqları don vurduğuna görə pəncədən amputasiya edilib.

Sentyabrın 11-də Beynəlxalq Mətbuat Mərkəzində nümayiş olunan "Xocalılı Ləfixanım" sənədli filmində Abbasovlar ailəsinin üzləşdiyi faciə və məhrumiyyətlərdən bəhs olunub. Film Əlil Qadınlar Cəmiyyəti İctimai Birliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Xocalıya ədalət!" kampaniyası çərçivəsində "Unudulmaz faciə" layihəsi üzrə çəkilib.

Tədbirdə layihənin rəhbəri Məhluqə Rəhimova məşum fevral gecəsində baş verənləri xatırladaraq bir ailənin üzləşdiyi dözülməz ağrıları ekrana çıxaran film yaradıcı heyətini təqdim edib.




"Xocalılı Ləfixanım" filminin ssenari müəllifi Mahir Qəribov, rejissoru İsmayıl Musayev, tarix elmləri doktoru Anar İsgəndərov, şair Eldar İsmayıl və başqaları xalqımızın tarixi yaddaşında ən dəhşətli faciələrdən biri kimi iz qoyan Xocalı soyqırımı barədə danışıblar. Tədbir iştirakçıları nümayiş olunan film barədə öz fikirlərini ifadə ediblər. Qeyd olunub ki, faciə barədə sənədli filmlərlə yanaşı, bütövlükdə Xocalı hadisələrini əks etdirən bədii filmlərin çəkilməsinə də ehtiyac var.

# Altay – türk xalqlarının qızıl beşiyi

Qazaxıstanın Ust-Kamenoqorsk şəhərində 5-ci "Altay – türk xalqlarının qızıl beşiyidir" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.

Konfransda Qazaxıstan, Fransa, Rusiya, Türkiyə, Yaponiya, Hindistan və digər ölkələrin alimləri iştirak ediblər.

Tədbirdə ölkəmizi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Tahir Şahbazov təmsil edib.

İnstitutdan bildirilib ki, azərbaycanlı alimin konfransın plenar iclasında "Qıpçaqlar Azərbaycanda: toponimlərdə yaşayan tarix" mövzusunda məruzəsi konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.




Daha sonra Tahir Şahbazovun S.Amanjolov adına Şərqi Qazaxıstan Dövlət Universitetinin tələbə və müəllim heyəti ilə görüşü olub. Görüşdə azərbaycanlı alimin ölkəmizin qıpçaq mənşəli toponimlərinə həsr olunmuş mühazirəsi dinlənilib. Alim müasir türkologiyanın ayrı-ayrı problemləri, Azərbaycan-Qazaxıstan elm və təhsil əlaqələrinin hazırkı vəziyyəti, Qazaxıstanda latın əlifbasına keçidlə bağlı Azərbaycan təcrübəsinin öyrənilməsi və s. məsələlər haqqında sualları cavablandırıb.

Görüşdən sonra Tahir Şahbazova universitetin rektorluğu tərəfindən təşəkkür məktubu təqdim olunub.

# Rus ədəbiyyatında Qurani-Kərim

## Professor Asif Hacıyevin kitabları "Amazon"da satışa çıxarılıb

Azərbaycan Universitetinin professoru, tanınmış türkoloq, ədəbiyyatşünas Asif Hacıyevin Türkiyədə nəşr edilmiş "Ahıska türk folkloru" və "Rus ədəbiyyatında Qurani-Kərim" kitabları beynəlxalq amazon.com saytı vasitəsilə elektron satışa çıxarılıb.

Universitetdən bildirilib ki, Atatürk Mədəniyyət Mərkəzi tərəfindən nəşr olunan "Ahıska türk folkloru" və "Şərq Kitabxana Yayımları"nın türk dilinə tərcümə edərək çap etdiyi "Rus ədəbiyyatında Qurani-Kərim" kitabları bu mövzulara həsr olunmuş ilk elmi əsərlər kimi Türkiyədə və digər ölkələrdə böyük maraqla qarşılanıb. Ahıska türklərinin folkloru və mifologiyası, etnik mədəniyyəti və tarixinin tədqiqi ilə ötən əsrin 80-ci illərindən məşğul olan Asif Hacıyev bu mövzuda Azərbaycanda və xarici ölkələrdə çap olunmuş kitabların və məqalələrin müəllifidir.

Asif Hacıyevin daha əvvəl Azərbaycanda nəşr olunmuş "Rus ədəbiyyatında Qurani-Kərim" kitabı türk dilinə tərcümə edilərək böyük tirajla çap olunub. Monoqrafiya Türkiyə elmi ictimaiyyətinin, təhsil müəssisələrinin diqqətini cəlb edib. Kayseri şəhərində yerləşən Erciyes Universiteti alimi təhsil ocağına dəvət edərək bu kitabın təqdimat mərasimini keçirib.

Professor Asif Hacıyev universitetdə monoqrafiyanın mövzusu üzrə mühazirə ilə çıxış edib.

Filoloq, tarixçi, etnoqraf, ilahiyyatçı, mədəniyyətşünas mütəxəssis və tələbələr üçün dəyərli məxəz olan hər iki kitabın Türkiyə nəşrlərinin amazon.com tərəfindən satışa çıxarılması azərbaycanlı alimin araşdırmalarına və bütövlükdə ölkəmizdə aparılan humanitar tədqiqatlara beynəlxalq miqyasda elmi marağın göstəricisidir.

# Tariximizin daş yaddaşı – Gilan türbəsi

*Kim bilir neçədir dünyanın yaşı,*
*Tarixin nə qədər yazısı vardır.*
*Hər saxsı parçası, hər məzar daşı,*
*Nəsildən, nəslə bir yadigardır!*

**Səməd Vurğun**

Azərbaycan qədim tarixi-mədəniyyət abidələri ilə zəngin ölkədir. Keçmişimizi bu günə, bu günümüzü gələcəyə daşıyan memarlıq abidələrimiz həm də tariximizin qoruyucusu – daş yaddaşıdır. Belə daş yaddaşlarımızdan biri də Gilan türbəsidir.

Tarixdən məlumdur ki, Gilan şəhəri Orta əsrlərdə indiki Ordubad rayonu ərazisində, Araz çayının sol sahilində salınıb. Feodal ara müharibələri nəticəsində şəhər dağıdılıb. Yalnız Gilan türbəsinin bir hissəsi dövrümüzədək salamat qalıb...

1979-cu ildə Gilan şəhəri xarabalıqlarında tədqiqatçılar elmi axtarışlar aparıb. Təpəlikdə tikilmiş türbədən (Xaraba Gilan türbəsi) maddi mədəniyyət nümunələri aşkar edilib. Türbədə qəbirüstü sərdabə uçub-dağıldığından məzarın kimə məxsus olduğu müəyyən olunmayıb. Gilan türbəsinin aşağı hissəsi Mömünə xatın məqbərəsinə oxşadığından həmin tikilinin XII yüzilliyə aid olduğu ehtimal olunub.

Gilan türbəsi qədim şəhər xarabalıqlarının mürəkkəb relyefində, iri bir təpənin yamacında inşa edilib. Mütəxəssislər qeyd edirlər ki, sərdabə daxildən səkkizbucaqlı, xaricdən isə düzbucaqlıdır. İçərisində sonradan tikildiyi aydın görünən və iç quruluşu ilə uyuşmayan alçaq səki var. Gilan türbəsinin sərdabəsi Azərbaycan və qonşu ölkələrin orta əsr memarlığında geniş yayılmış səkkizüzlü sərdabələrdən giriş qapısı ilə üzbəüz dərin taxçasına və örtük konstruksiyasına görə fərqlənir. Gilan sərdabəsində örtüyün ortası iç məkanın mərkəzində ucalan – yuxarıya doğru göbələkvari genişlənən sütuna dayanır. Buna bənzər mərkəzi dayaq sütunu Azərbaycan ərazisində indiyədək iki abidədə -



Marağadakı qırmızı günbəz (1148) və Naxçıvandakı Mömünə xatın (1186) türbələrinin sərdabələrində aşkar edilib.

Gilan türbəsi quruluşca sadədir və tikinti texnikasının səviyyəsinə görə həmin türbələrdən geri qalır. Maraqlıdır ki, hər üç abidə Azərbaycanın mərkəzi hissəsində - Naxçıvan-Marağa memarlıq məktəbi zonasındadır. Ancaq Gilan türbəsinin konstruksiya baxımdan ən yaxın analogiyası Türkiyə ərazisindədir. Mütəxəssislərin fikrincə Gilan sərdabəsi memarlıq quruluşuna görə Şərqi Anadolunun Kemah qəsəbəsindəki Menqucuq Qazi türbəsi (XII əsr) ilə eyniyyət təşkil edir. Hətta hər iki sərdabənin ölçüləri, həcmi və hündürlüyü də bir-birinə olduqca uyğun gəlir. Ancaq nisbətlərin ağırlığı memarlıq elementlərində və inşaat işlərində aydın görünür. Bu sadəlik onu Türkiyədəki abidədən bir qədər fərqləndirir.

AMEA-nın müxbir üzvü, Səlcuqlar dövrü Azərbaycan memarlıq abidələrinin tədqiqatçısı Cəfər Qiyasinin fikrincə, Kemahdakı türbə də Naxçıvan-Marağa memarlıq məktəbi nümayəndəsinin işi ola bilər. Belə ki, həmin illərdə Menqucuqların əsas tikililərini iki azərbaycanlı memar inşa edib. Onlardan biri memar Əhməd Əbubəkr oğlu Mərəndli olub. Onun Sivasda ucaltdığı abidə isə Keykavus türbəsidir. Bu memarlıq abidəsi görünüşcə Gilan və Kemah türbələrinə çox bənzəyir...

Gilan sərdabəsində türbənin tikilmə tarixini bildirən kitabə dağılıb. Ancaq yuxarıda göstərilən xüsusiyyətlər, bir də uçuqlar içində qalan bəzək fraqmentləri abidənin tikilmə dövrünü aydınlaşdırmağa imkan verib. Gilan türbəsinin bəzək ünsürləri və materialları (bişmiş və firuzəyi rəngli şirli kərpiclərdən yığılmış həndəsi naxışlar və kufi xəttli yazı parçaları, gəc üzərində oyma naxışlar) XII əsrdə Mərkəzi Azərbaycan şəhərlərində tikilmiş bürcvarı türbələrin memarlıq bəzəyi və materialları ilə uyğun gəlir. Bu türbə də Marağa və Naxçıvan türbələrinin çoxu kimi alt kürsüsü daşdan, üst qatı kərpicdən tikilən, memarlıq dekorunda şirli kərpiclər işlədilən monumental abidə olub. Bütün bu xüsusiyyətləri nəzərə alan mütəxəssislər türbənin XII əsrin sonlarında tikildiyini söyləyiblər.

Araşdırmalardan belə qənaətə gəlinir ki, Gilan türbəsinin aşkar edilməsi dünya memarlığında bənzərsiz konstruktiv sistemləri olan Mömünə xatın türbəsi sərdabəsinin prototipini aydınlaşdırmağa yardım edib...

**Savalan FƏRƏCOV**

# Nərgizava nekropolunda yeni tapıntılar

AMEA-nın müxbir üzvü Vəli Əliyevin rəhbərlik etdiyi Nərgizava ekspedisiyası 2019-cu ilin avqust-sentyabr aylarında Ağsu rayonunun Gəgəli kəndinin Yasamal adlı qobuluq ərazisində arxeoloji kəşfiyyat qazıntısı aparıb.

Hələ keçən il Nərgizava nekropolunun yaşayış yerini müəyyən etmək məqsədilə Yasamal ərazisində 20 kvadratmetrlik sahədə kəşfiyyat qazıntısına başlanılmışdı. Növbəti ekspedisiyada həmin sahədə qazıntı davam etdirilib. Müəyyən olunub ki, mədəni təbəqə iki metr dərinlikdən üzə çıxır. Bu təbəqənin qalınlığı isə həmin sahədə iki metrə çatır. Saxsı qab sınıqları qarışıq gilli-küllü təbəqədə arabir çaydaşı və əhəngdaşılarına rast gəlinsə də, hər hansı tikili qalığı üzə çıxmayıb. Aşkar olunan saxsı qab parçaları tədqiqat üçün götürülüb. Həmin ərazidən 250 metr cənubda ikinci qazıntı sahəsi seçilib. Burada da saxsı qab sınıqları qarışıq gilli-küllü təbəqə üzə çıxıb. Bu təbəqədə də çaydaşı və əhəngdaşılarına rast gəlinib.

Ekspedisiya ərzində Yasamal qobusunun vadidə əmələ gətirdiyi dərənin ikikilometrlik hissəsi diqqətlə nəzərdən keçirilib. Müşahidə zamanı sel sularının yuduğu divarda bir ədəd saxsı qadın heykəlciyi aşkar olunub. Digər antik dövr abidələrindən üzə çıxsa da, Nərgizavada bu tip saxsı heykəlciyə ilk dəfə rast gəlinir. Heykəlciyin alt hissəsində əsaya keçirmək üçün deşik açılıb. Görünür, bu heykəlcik dini ayinlərdə istifadə edilib.

Qazıntı sahələrindən bir kilometr cənubda Yasamal qobusunun qərb divarında yaşayış yerinin qalıqları izlənilib. Tikinti materialı kimi əhəngdaşı və çiy kərpicdən istifadə olunub. Ekspedisiya rəhbərliyi gələn il həmin sahədə tədqiqat aparmağı planlaşdırır.

Yaşayış yerindən şimalda küp qəbirlər nekropolunun olduğu müəyyən edilib. Hələ Oğuz-Qəbələ-Bakı su kəməri çəkilərkən həmin ərazidə küp qəbirlər üzə çıxsa da, arxeoloji baxımdan öyrənilməyib. Ekspedisiya üzvləri küp qəbirlərdən birini müəyyən edərək öyrənib. Yer səthindən iki metr dərinlikdə üzə çıxan qəbir küpü torpağın ağırlığından parçalansa da, qəbir avadanlığı salamat qalıb. Skeletin üzərindən bir ədəd qısa tiyəli bıçaq və iri əqiq muncuq götürülüb. Baş tərəfində bir ədəd kasa, ayaq tərəfində isə iki ədəd kasa və bir ədəd ağzı novçalı su qabı var. Qəbir küpünün ətrafında isə daha iri qablar qoyulub. Onlardan birinin içərisində kiçik su qabı da var.



Qeyd edək ki, Nərgizava abidəsi (Ağsu rayonunun Bico və Gəgəli kəndləri ərazisində yerləşir) 1998-ci ildə tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli tərəfindən təsadüfən aşkarlanıb.

"Tariximizin axtarılmaqda olan yer altındakı izləri bizlərə hələ çox məlumatlar verəcək", - deyən tarixçi, bu ərazinin arxeoloji turizm baxımından maraq doğurduğunu söyləyib.

# Onu niyə sevirik?...

əvvəli səh. 1-də

### Hisslərini tərənnüm edən filmlər

Əbiblərimizdən biri haqlı olaraq qeyd edib: "Sənətkar insanları öz daxilinə yönəldir və qəlbin hamı üçün ümumi olan sirlərini açıb göstərir". Arif Babayevin "Azərbaycanfilm" kinostudiyasında quruluş verdiyi ekran əsərləri də incə qəlbinin, həssas duyğularının, ülvi hisslərinin tərənnümüdür. Belə olmasaydı, çəkdiyi müxtəlif janrlı filmlərdə həyat üçün vacib olan faktorlar, insanlıq meyarı qabarıq şəkildə əksini tapmaz, yüksək mənəvi dəyərləri təbliğ edən kadrlar həyat məktəbinə çevrilməzdi. Quruluş verdiyi 9 bədii filmdə müsbət xarakterlər toplusu yaratmağa müvəffəq olan rejissor cəmiyyətin sevə-sevə qəbul etdiyi personajların təfsirində örnək timsallı ömür yolu olan insanların həyat tərzini ekranlara gətirib.

Arif Babayevin çəkdiyi filmlərin hər birində hüznlü xatirələr var. Müasirlərinin həyatını, əxlaq normalarını, ətrafdakılara münasibətini məntiqli şəkildə şərh edən rejissorun yaradıcılığındakı bu kimi jestləri dost və doğmalarına, uşaqlıq və gənclik illərinə sədaqəti, etibarı adlandırmaq olar.

"Bizi bağışlayın" filmində Nərimanın söylədiyi sözlər – "Mənim uşaqlıq illərimdən heç nə qalmayıb. Ağırdır, anlaşılmazdır. Sanki məni aldadıb, mənə çox əziz olanları əlimdən alıblar" – əslində, Arif Babayevin illərin axıb getməsi ilə barışmadığını, uşaqlıq dostlarını, dəyərli insanları itirməyi qəbul etmədiyini sübut edir.

Fəlsəfi-estetik əhəmiyyətə malik olan realist yaradıcılığını novatorcasına təqdim edən rejissor hər bir filmində yeni-yeni forma və üslub tətbiq edərək kameranın köməyi ilə riyazi hesablamalar qədər dəqiq təsvir etdiyi detal və xarakterləri səbir və aramla izləyir, ekran qəhrəmanlarının həyat tarixçəsini təfsilatı ilə, emosionallıqla tamaşaçıya nəql edir. Onun üçün ən vacib şərtlərdən biri də təsvir və dialoqların, mahnı və melodiyaların, texniki təchizatın hər birinin film qəhrəmanlarının xarakterinin açılmasına xidmət etməsi idi. Bu mənada personajların xarakter və psixologiyasını təsvir edən kadrlar, sözün əsl mənasında, vizual tədris vasitəsidir.





İstər televiziya, istərsə də kino fəaliyyətində müxtəlif həyat hekayələrini kameranın obyektivindən könlünün gözü ilə təqdim və təhlil edən, həmçinin münasibət bildirən rejissor qəlblərə toxunmağı, düşüncələrə sirayət etməyi bacarıb. Onun yaradıcılığının ümdə sirri çəkdiyi hər bir kadrın hisslərlə dolu olmasında, yaşarı təqdim edilməsindədir. Uğurlu ekran taleyini yaşayan filmlərinin məzmun və forma zənginliyi bu mənada həyat hekayələrinin səmimi təfsilatını nəql edir, kinonun ibrətamiz tərəflərini göstərir.

### "Zirvə" ilə başlanan yol

Uzun illər televiziyada çalışmasına, kamera ilə məharətlə işləməsinə, kino texnikasının sirlərinə yaxşı bələd olmasına baxmayaraq, Arif müəllim böyük kinoya qısametrajlı filmlə gəldi. 1964-cü ildə İmran Qasımovun ssenarisi əsasında "Cazibə qüvvəsi" kinoalmanaxına daxil olan "Zirvə" novellasına quruluş verdi. Kinonovellada bir qrup alpinistin qarlı dağa çıxmasından və çətin sınaq qarşısında olan gənclərin məğrurluğundan danışılır. Mövzu mahiyyət etibarilə insanın daxili məni ilə çarpışması, şəxsiyyəti, vicdanı qarşısında hesabat verməsi, vəhşi təbiətə qarşı qalibiyyət iddiası, məqsəd və niyyətinin arxasınca gedərək gücünü təsdiqləməsindən ibarətdir.

Bundan başqa, istedadlı rejissorun filmoqrafiyasında xarakterlər toplusu təqdim edən "İnsan məskən salır", "Uşaqlığın son gecəsi" kinopovestləri, "Gün keçdi" lirik kinopovesti, "Ömrün ilk saatı" bioqrafik filmi, "Alma almaya bənzər" lirik ekran əsəri, "Arxadan vurulan zərbə" detektiv filmi, "Bizi bağışlayın" televiziya-bədii filmi, "Birisigün, gecəyarısı…" sənədli-macəra filmi var.

Mövzu və janrı müxtəlif olan ekran əsərlərində ali ideyaları təbliğ edən qəhrəmanların hər biri filmin leytmotivini tamamlayan xüsusiyyətləri, yaşarı təqdimatları ilə diqqət çəkir. Fərqli və nümunəvi ekran obrazlarının fərdi cəhətləri, həyat missiyası ictimaiyyətin düşüncə mənbəyi, təlimatıdır. Belə ki, insanlıq və mərdlik mücəssəməsi olan ekran qəhrəmanları (Ramiz, Qurban, Nəriman, Baba Əliyev, Rüstəm və s.) seçdikləri çətin və şərəfli məsləklərinin mühafizəkarı, müdafiəçisidirlər. Filmlərin dolğun və tamamlanmış ekran həllinə nəzər saldıqda rejissorun mövzulara böyük diqqət və qayğı ilə yanaşdığını görürük.

Dəniz neftçilərinin çətin həyat şəraitini əks etdirən "İnsan məskən salır" dramında dəmir estakadalar üzərində çalışan insanların əmək fəaliyyətinin çətinliyi ilə yanaşı, onların ülvi hisslərinə, mənəvi dünyalarının mətin və kövrəkliyi mövzusuna da toxunulub. Qurudan kilometrlərlə uzaqda salınan qəsəbədə yaşayan, fırtınalı dənizin qadası-qovğası ilə çarpışan insanların da məqsədi-məramı var. Bəs görəsən, uzaqdan görünüşü ilə insanı vahiməyə salan qasırğalı-fırtınalı dənizin dəli dalğaları ilə vuruşmağa, çətin neftçi peşəsini seçməyə onları nə vadar edib? Niyə bu insanlar daimi məskən kimi məhz dənizin ortasını, dəmir estakadaları seçiblər? Cavab ekranda, obrazların təfsirində, filmin ümumi mənzərəsindədir. Sadə, bəsit həyat tərzi ilə barışmamaq, məqsədyönlü yaşamaq, şəxsiyyətlərini, fərqliliklərini zəhmətkeşlikləri sayəsində sübut etmək…



Lakin filmdən də gördüyümüz kimi, qəhrəmanların şəxsiyyətindəki daxili əzəməti, qorxmazlığı, zəhmətkeşliyi təsdiqləmək heç də onlara asan başa gəlmir. Deməli, ictimai mahiyyəti dərin olan, həyatın, mühitin qanunauyğunluğunu təmsil edən obrazlar heç də sadə deyil və filmlərdə də rejissor tərəfindən haqlı olaraq fərdilik prizmasından təhlil obyektinə çevrilib.

Cəmiyyətdəki vacib və maraqlı faktları yaradıcılığında təhlil edən Arif Babayevin ekran qəhrəmanları tipik (əsasən müsbət) keyfiyyət daşıyıcılarıdır. Bu mənada həyatın mürəkkəb olayları içərisindən ictimai mahiyyəti təmsil edən obrazları əks etdirən rejissorun ideya və təfəkkürünün məhsulu olan filmləri realist sənət nümunələridir.

Kinoya gəlməklə həm özü, həm də Azərbaycan kinosu üçün doğru seçim etdiyini yaradıcılığında təsdiqləyən Arif Babayevin ömür yolu, sözün əsl mənasında, bir örnəkdir. Həmkarlarının və doğmalarının xatirələrinə istinadən belə nəticə çıxarmaq olar ki, istedadlı rejissor bir çox müsbət cəhətlərini mizan verdiyi obrazların təfsirində göstərib. Müdriklərimiz "Həqiqi sənətkar təkcə başının ağlı ilə deyil, həm də ürəyin ağlı ilə yaşayır", - deyirlər. Bu mənada çəkdiyi filmlərə ürəyinin ağlı ilə nəfəs, könlünün gözü ilə nur verən rejissorun bütün filmləri ali və kövrək hisslərinin tərənnümüdür.

### İntuitiv yanaşma

Sevdiyi peşəsinə böyük hörmətlə yanaşan, bunu da hər bir filmində sübut edən, daha çox romantik-poetik üslubda işləyən rejissor tarixi-bioqrafik və detektiv janra müraciət etməklə ampluasız kino xadimi olduğunu təsdiqlədi. Eyni zamanda o, bu tendensiyanı filmləri vasitəsilə tamaşaçılara sevdirdiyi aktyorların yaradıcılığında da tətbiq edib.

Məsələn, Azərbaycan kinosunun simalarından olan, ekran obrazları vasitəsilə yaradıcılığı məktəb sayılan Xalq artisti Həsən Məmmədovun Arif Babayevin filmlərində rol alması aktyorla rejissorun yaradıcılıq tandeminin uğurudur. Kinorejissor Həbib İsmayılovun quruluş verdiyi "Böyük dayaq" (1962) filmindəki sakit təbiətli Qaraş surətindən sonra "Zirvə" kinonovellasında çılğın, iddialı Kamil obrazını Həsən Məmmədova böyük inamla həvalə edən Arif Babayev yaxşı bilirdi ki, kinoya yeni gələn gənc istedad daxili potensialını müxtəlif obrazlarda dolğun təqdim etməyə qadirdir. Düzgün mizan verdiyi Kamil surəti ilə də aktyorun bacarığını təsdiqlədi, ardıcıl kino obrazlarının yaranmasına stimul verdi.

Rejissor ideyasını yaradıcllığında dolğun əks etdirən Həsən Məmmədovun emosional, yaşarı oyunu tərəf-müqabillərinin də ifalarını dəqiq çatdırmalarına imkan yaradırdı. "Zirvə" filmindən sonra o, Arif Babayevin ekranlaşdırdığı "Gün keçdi" filmində Oqtay, "Alma almaya bənzər"də Qurban, "Arxadan vurulan zərbə"də Qəmərli, "Bizi bağışlayın"da Nəriman, "Birisigün, gecəyarısı…" filmində Baba Əliyev rollarına çəkildi. Bu isə yaradıcılığının təfsirində Arif Babayev nəzərləri ilə müxtəlif dövrlərdə yaşayan fərqli insanların ictimai şərait xüsusiyyətlərini, məqsədlərini, ən başlıcası isə idrak fərqliliyini cilalamaq, çatdırmaq demək idi.

Yaradıcılıq prosesində kompozisiya tamlığına, bədii keyfiyyətin üstünlüyünə diqqət yetirən Arif Babayev üçün filmlərinin hər bir kadrının daxili dinamikası, emosional təsir gücü olmalı idi. Kadrların mənalı və dolğunluğunun təminatı üçünsə o, düzgün işıqlandırmadan, operator işindən, aktyor peşəkarlığından, hadisələrlə uzlaşan musiqi və mahnılardan məharətlə istifadə edir, istək və məqsədini gerçəkləşdirdi. "Zirvə"dən görünən, növbəti filmlərilə zirvələrə doğru yönələn önəmli xüsusiyyətləri də ona unudulmazlığı, sənət dostlarına (yaradıcı heyətə) tükənməz alqışları, biz tamaşaçılara isə mənəvi gözəllikləri bəxş etdi.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

## Dünya uşaq ədəbiyyatının səsli kitabxanası

Bakı şəhəri 216 nömrəli tam orta məktəbdə "Dünya uşaq ədəbiyyatının səsli kitabxanası" layihəsinin təqdimatı keçirilib.



Məktəbin direktoru Elnur Bayramov layihənin Təhsil Nazirliyinin həyata keçirdiyi III qrant müsabiqəsində ümumtəhsil məktəbləri kateqoriyasında qalib olduğunu söyləyib.

Bildirib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda və "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nda sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması, sosial inteqrasiyası ölkənin təhsil siyasətinin vacib istiqamətlərindən biri kimi qeyd edilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilməsi müasir dövrün əsas problemlərindən biridir və bu istiqamətdə müxtəlif metodlar tətbiq edilir. Sözügedən layihə çərçivəsində də bu istiqamətdə uşaq və yeniyetmələr üçün yeni nəsil kitabxana yaradılacaq.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan və dünya ədəbiyyatının müxtəlif nümunələri Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşr olunaraq oxucuların ixtiyarına verilib. Layihə üzrə həmin əsərlərin bəziləri səsli formada məktəblilərin istifadəsinə veriləcək. 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası"ndan seçilən əsərlər peşəkar qiraətçilər tərəfindən studiya şəraitində səsləndiriləcək və yaradılacaq www.seslikitabxana.az saytına yerləşdiriləcək.

Bakı Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Ələmdar Cabbarlı qeyd edib ki, layihə çərçivəsində yaradılacaq səsli kitabxana görmə imkanları məhdud uşaqların, eyni zamanda ölkədəki ümumtəhsil məktəbləri şagirdlərinin böyük marağına səbəb olacaq.

Bakı şəhəri 186 nömrəli məktəbin direktoru Şakir Mikayılov və digər çıxış edənlər də layihənin əhəmiyyətindən bəhs ediblər.

## Xatirə təqvimi

**14-17 sentyabr**

### Azərbaycan

**14 sentyabr 1880** – Yazıçı İbrahim Mehdi bəy oğlu Musabəyov (1880-1942) Qəbələdə anadan olub. Yazıçının "Neft və milyonlar səltənətində" povesti əsasında 1916-cı ildə eyniadlı ekran əsəri – Azərbaycanın ilk tammetrajlı bədii filmi çəkilib. Qazaxıstanın Karaqanda şəhərində sürgündə vəfat edib.

**14 sentyabr 1911** – Şair, dramaturq, ədəbiyyatşünas Müzəffər Qasım oğlu Nəsirli (1911-1980) Naxçıvan MR Şahbuz rayonu Sələsüz kəndində anadan olub.

**14 sentyabr 1939** – Yazıçı-dramaturq Aslan Qəhrəman oğlu Qəhrəmanlı (1939 – 19.1.2014) Ağstafa rayonunun Yenigün kəndində doğulub. Televiziyada ekranlaşdırılmış "Səni axtarıram", "Bağışla" və "Səndən xəbərsiz" pyeslərinin, povest və hekayələrin müəllifidir.

**14 sentyabr 1941** – Əməkdar incəsənət xadimi, kinorejissor Teymur Bəkir oğlu Bəkirzadə (1941-1996) Bakıda doğulub. "Azərbaycanfilm" kinostudiyasında sənədli və bədii filmlərə ("Rəqiblər", "Yol əhvalatı") quruluş verib.

**14 sentyabr 1992** – Xalq şairi Hüseyn Arif (Hüseynzadə Hüseyn Camal oğlu; 15.6.1924 – 1992) vəfat edib. Azərbaycan Aşıqlar Birliyinin rəhbəri (1984-1992) olub.

**15 sentyabr 1905** – Azərbaycanda kukla teatrının yaradıcısı, aktyor, rejissor Molla Ağa Bəbirli (1905 – 22.10.1970) Bakıda anadan olub. "O olmasın, bu olsun", "Bir məhəllədən iki nəfər", "Sehrli xalat" filmlərində çəkilib, Akademik Dram Teatrında çıxış edib.

**15 sentyabr 1918** – Nuru paşanın komandanlığı altında Azərbaycan-türk (Osmanlı) Qafqaz İslam Ordusu Bakını "Sentrokaspi diktaturası" və daşnak qüvvələrindən azad edib. Həmin gün Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı – "Azərbaycan" qəzetinin ilk sayı çapdan çıxıb.

**15 sentyabr 2006** – Görkəmli bəstəkar, Xalq artisti, professor Vasif Zülfüqar oğlu Adıgözəlov (28.7.1935 – 2006) vəfat edib. Oratoriya ("Odlar yurdu", "Çanaqqala"), opera ("Ölülər", "Natəvan"), kantata və s. əsərlərin müəllifidir. Bəstəkarlar İttifaqının sədri (2001-2006) olub.

**15 sentyabr 2007** – Xalq rəssamı Elbəy Mirzə Həsən oğlu Rzaquliyev (17.6.1926 – 2007) vəfat edib. "Qara daşlar", "Telefonçu qız", "Gün keçdi", "Arxadan vurulan zərbə" və s. filmlərin rəssamı olub.

**16 sentyabr 1909** – Azərbaycanın ilk kinoaktrisalarından olan İzzət Mirzəağa qızı Orucova (1909 – 22.4.1983) Bakıda doğulub. "Sevil" (1929), "Almaz" (1936) filmlərində baş rollarda çəkilib. Sonralar tanınmış kimyaçı alim, Azərbaycan Elmlər Akademiyasının akademiki olub.

**16 sentyabr 1934** – Əməkdar incəsənət xadimi, pianoçu, professor Elmira Yusif qızı Səfərova (1934-1997) Bakıda anadan olub.

**17 sentyabr 1956** – Rəssam, heykəltəraş Müslüm Ömər oğlu Eldarov (1956-2003) Bakıda doğulub. Bakı İncəsənət Mərkəzinin ("Yeni Gallery") yaradıcılarından biri olub.

### Dünya

**14 sentyabr 1321** – İtalyan şairi Dante Aligyeri (Dante Alighieri; 15.5.1265 – 1321) vəfat edib. İntibah ədəbiyyatının şah əsərlərindən olan "İlahi komediya" poemasının müəllifidir. Axirət dünyasına səyahəti təsvir edən poema üç hissədən ("Cəhənnəm", "Əraf", "Cənnət") ibarətdir.

**14 sentyabr 1618** – Holland əsilli ingilis rəssamı Piter Leli (Peter Lely - Pieter van der Faes; 1618-1680) anadan olub.

**14 sentyabr 1898** – Rus aktyoru, SSRİ Xalq artisti Mark Prudkin (1898-1994) anadan olub. Filmləri: "Karamazov qardaşları", "On iki stul" (1976) və s.

**15 sentyabr 1789** – Amerika yazıçısı Ceyms Fenimor Kuper (James Fenimore Cooper; 1789 - 14.9.1851) anadan olub. Tarixi və macəra romanlarının müəllifidir: "Casus", "Dəniz qulduru", "Losman", "Sonuncu mogikan", "Ləpirçi" və s.

**15 sentyabr 1890** – İngilis yazıçısı, detektiv əsərlərin müəllifi Aqata Kristi (Agatha Mary Clarissa; 1890 – 12.1.1976) anadan olub. Əsərləri: "Rocer Ekroydun qətli", "Yarımçıq portret", "Şərq ekspressində qətl", "Nildə ölüm" və s.

**15 sentyabr 1894** – Fransız kinorejissoru, "Oskar" mükafatı laureatı Jan Renaur (1894-1979) anadan olub. Filmləri: "Böyük illüziya", "Marselyoza", "Fransız kankanı" və s.

**15 sentyabr 1914** – Türk yazıçısı Orxan Kamal (Mehmet Raşit Öğütçü; 1914 – 2.6.1970) Adananın Ceyhan qəsəbəsində doğulub. "Baba evi", "Cəmilə", "Yad qızı", "Qürbət quşları" kimi romanları, "Çörək davası", "Arxa küçə" və s. hekayələri yazıçıya geniş oxucu rəğbəti qazandırıb.

**15 sentyabr 1925** – Rus aktyoru, SSRİ Xalq artisti Kirill Lavrov (1925-2007) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Karamazov qardaşları", "Odun ram edilməsi" və s.

**16 sentyabr 1462** – İtalyan filosofu Pyetro Pomponassi (Pietro Pomponazzi; 1462-1525) anadan olub.

**16 sentyabr 1888** – Finlandiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1939) laureatı Frans Emil Sillanpyya (Frans Eemil Sillanpaa; 1888-1964) anadan olub. Əsərləri: "Həyat və günəş", "Adamlar yay gecəsində", "Cavanlığında vəfat etmiş".

**17 sentyabr 1908** – Amerika yazıçısı, detektiv romanlar müəllifi Con Krizi (John Creasey; 1908-1973) anadan olub.

**17 sentyabr 1931** – İtalyan əsilli Amerika aktrisası, "Oskar" mükafatı laureatı Enn Benkroft (Anne Bancroft – Anna Maria Louisa Italiano; 1931-2005) anadan olub. Filmləri: "Məzun", "Nazaretli İsa", "Əsgər Ceyn" və s.

**Hazırladı: Vüqar ORXAN**

## Vaqif Sultanlının romanı Böyük Britaniyada nəşr olunub

Yazıçı Vaqif Sultanlının "Səhra savaşı" ("Struggle in the desert") romanı Böyük Britaniyada nəşr olunub.




Londonun "Rossendale books" nəşriyyatında yayımlanan kitabı ingilis dilinə Cavid Abbaslı çevirib. Roman yazıçı-tərcüməçi Vinsent Valşın redaktəsi ilə nəşr edilib.

Şərti-metaforik üslubda qələmə alınmış romanda təsvir olunan hadisələr zamanın çatlaması ilə gələcəkdən imtina edərək keçmişə üz tutan qəhrəmanın taleyi fonunda aşkarlanır. Hadisələrin bu müstəvidə çözümü müəllifə insan, zaman və dünya haqqında fəlsəfi düşüncələrini əks etdirməyə imkan verir.

"Səhra savaşı" çağdaş dünyaya hakim olan özgələşmə, yaddaşsızlaşma, biganələşmə, gərəksizləşmə kimi mənəvi və humanitar deformasiya probleminə etiraz ruhu ilə diqqəti çəkir. Süjeti fəlsəfi-mifoloji düşüncədən qaynaqlanan romanın bədii üslubu mürəkkəb təhkiyə hörüyü ilə müşayiət olunan hadisə və epizodlarla şərtlənir.

"Səhra savaşı" romanı Türkiyə və Rusiyada da nəşrə hazırlanır.

# Cümhuriyyət yadigarının 100 illiyi Vyanada qeyd olunub



Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin yol keçib. Prezident İlham Əliyevin "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı əsasında ali təhsil ocağının yubiley tədbirləri ölkə hüdudlarından kənarda da qeyd edilir.

Avropanın mədəniyyət paytaxtlarından olan Vyana şəhərində Bakı Dövlət Universitetinin (BDU) 100 illik yubileyi təntənə ilə keçirilib. Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) təşkil olunan yubiley tədbirinə BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti, Vyanada akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, Avstriya ictimaiyyətinin nümayəndələri, mədəniyyət və elm xadimləri, bu ölkədəki azərbaycanlı icmasının nümayəndələri qatılıblar.

Mərasim BDU tələbələrinin ifasında Azərbaycanın dövlət himninin səsləndirildiyi videokadrın nümayişi ilə başlanıb.

AMM-in rəhbəri Leyla Qasımova, ölkəmizin Avstriyadakı səfiri Qalib İsrafilov və BDU-nun rektoru Elçin Babayev çıxış ediblər.

Leyla Qasımova bildirib ki, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, cəmi 23 ay ömrü olsa da, tarixdə önəmli izlər qoyub. Onlardan biri də Bakı Dövlət Universitetinin təsis olunmasıdır. Cümhuriyyətin qurucuları Avropa nümunəsi əsasında ali təhsil ocağının əsasını qoymaqla yanaşı, oraya dövrün tanınmış alim və mütəxəssislərini dəvət etmişdilər.

Səfir Qalib İsrafilov çıxışında qeyd edib ki, bu ali təhsil ocağının inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ulu öndər Bakı Dövlət Universitetini "Azərbaycan xalqının milli sərvəti" kimi yüksək dəyərləndirib, onun məzunu kimi universitetin regionda qabaqcıl təhsil ocağına çevrilməsi üçün çox işlər görüb.

BDU-nun rektoru Elçin Babayev yubileyin yüksək səviyyədə qeyd olunmasına görə Azərbaycan Mədəniyyət Mərkəzinə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, 100 il əvvəl iki fakültə ilə fəaliyyətə başlamış universitetdə bu gün 16 fakültədə 22 mindən çox tələbə təhsil alır. Regionun qabaqcıl elm və təhsil müəssisəsi olan BDU-nun bu gün iki elmi tədqiqat institutu, zəngin laboratoriyaları, elmi mərkəzləri, 125 kafedrası, 3 milyona yaxın kitab fondu olan böyük kitabxanası var.



Universitetin 150 mindən artıq məzunu arasında dünya şöhrətli alimlər, siyasi xadimlər, görkəmli şəxsiyyətlər var. Ümummilli lider Heydər Əliyev, Nobel mükafatı laureatı Lev Landau, əfsanəvi kimyaçı Yusuf Məmmədəliyev, görkəmli ədəbiyyatşünas alim və yazıçı Mir Cəlal Paşayev, dünya şöhrətli riyaziyyatçı Zahid Xəlilov, tanınmış şərqşünas alim Aida İmanquliyeva və digər onlarla məşhur sima bu şərəfli siyahıda yer tutur. Çıxışının sonunda rektor Elçin Babayev AMM-in rəhbəri Leyla Qasımovaya BDU-nun fəxri fərmanını təqdim edib.

Tədbirin bədii hissəsində gənc dirijor Mustafa Mehmandarovun rəhbərliyi ilə "Xəzər virtuozları" kamera orkestri konsert proqramı təqdim edib. Konsertdə Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib. Solistlər Cəmilə Qaraçaylı (skripka), Arslan Növrəsli (tar) və Etibar Əsədlinin (fortepiano) ifaları maraqla qarşılanıb.

Tədbirdə BDU-nun 100 illik tarixini əks etdirən videoçarx göstərilib. Mərkəzin zallarında BDU-nun 100 illik fəaliyyəti haqqında tarixi və müasir fotoşəkillərdən ibarət sərgi nümayiş olunub.

# Türk dünyasının daha bir ədibinin xatirəsi Ankarada əbədiləşdirildi

Sentyabrın 11-də Ankarada Keçiörən Bələdiyyəsi və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un birgə təşkilatçılığı ilə Rusiya Federasiyası Kabarda-Balkar Respublikasının Xalq şairi, balkar ədəbiyyatının klassiki, əsərləri 20-dən çox dilə tərcümə edilən Qaysın Quliyevin (1917-1985) adını daşıyan park və ədibin büstünün açılış mərasimi keçirildi.



Mərasimdə Keçiörən Bələdiyyəsinin başqanı Turqut Altınok, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Moldovanın Qaqauz Yeri muxtar bölgəsindən millət vəkili İvana Köksal, Bosniya və Herseqovinanın Ankaradakı səfiri Bakir Sadoviç, Qırğızıstanın Ankaradakı səfiri Kubanyehbek Omuraliyev, Qaysın Quliyevin oğlu Azamat Quliyev, büstün müəllifi, heykəltəraş Leuan Ahmatov, Tatarıstan Yazarlar Birliyinin sədri Rafis Qurbanov və başqa qonaqlar iştirak edirdi.

Bələdiyyə başqanı Turqut Altınok görkəmli şair, yazıçı Qaysın Quliyevin adını Keçiörəndə yaşatmaqdan məmnun olduqlarını dedi: "Tarixi yaradanlar və tarixi yazanlar var. Biz tarixi yazanların haqqını verməyə çalışırıq. Millətləri millət edən dilləri, ana dilində yaratdıqları ədəbiyyatları, mədəniyyətləri, sənət əsərləridir. Dünya türk dillərinin yaşadılmasında Qaysın Quliyev kimi ədiblərin böyük əməyi var. Sovetlər zamanında balkarları Qırğızıstandan sürgün edəndə ona "Sən qal" dedikdə, cavabında "Millətimizin olmadığı yerdə mən qalmaram" demişdi. Bu gün belə bir vətənsevər şəxsiyyətə haqqını verə biliriksə, bundan çox məmnunuq".

TÜRKSOY-un baş katibi Düsen Kaseinov öz çıxışında belə tədbirlərin türk xalqlarının mədəniyyətlərinin yaşadılması, sənət və mədəniyyətdə iz qoyan şəxsiyyətlərinin tanıdılması məqsədi daşıdığını bildirdi: "Qaysın Quliyevin adını bu park və büstlə yaşadacağıq. Bunun üçün türk dünyasının dəyərli dostu Turut Altınoka və Keçiörən Bələdiyyəsinə təşəkkür edirəm".

Qaysın Quliyevin şeirlərinin fərqli millətlər tərəfindən sevilərək oxunduğunu dilə gətirən Lermontov Fondunun həmsədri Askar Dudayev isə Q.Quliyevin adının yaşadılacağı parkın və şairin büstünün Türkiyə torpağında açılmasından qürur duyduğunu ifadə etdi.

Sonra digər iştirakçılar Qaysın Quliyevin həyat və yaradıcılığından bəhs etdilər. Tədbirin bədii hissəsində Qazaxıstanın paytaxtı Nur-Sultandan gələn Xalq çalğı alətləri ansamblının ifasında musiqilər səsləndi. Sonra büstün açılışı oldu.

Tədbirin sonunda Lermantov Fondunun həmsədri Askar Dudayev bələdiyyə başqanı Turqut Altınoka "Qaysın Quliyev" medalını təqdim etdi.

**Mehparə SULTANOVA**
**Ankara**

# "İstanbul Biennale"sinə 25 ölkədən rəssamlar qatılacaq

Türkiyənin İstanbul şəhərində 1987-ci ildən bəri keçirilən müasir incəsənət sərgisi – "İstanbul Biennale"si bu il sentyabrın 14-dən noyabrın 10-dək davam edəcək.

Sərgidə 25 ölkədən 56 rəssamın 220 əl işi nümayiş etdiriləcək. Həmişəki kimi, bu sərginin eksponatlarının da şəhərin mədəni irs inciləri – Topqapı sarayında və Ayasofya məbədində, eləcə də Memar Sinan Universiteti, İstanbul Dövlət İncəsənət və Heykəltəraşlıq Muzeyi, Böyükadada nümayiş etdiriləcək.

İstanbul Mədəniyyət və İncəsənət Fondunun sədri Bülənt Əczaçıbaşı tədbirlə bağlı keçirilən mətbuat konfransında bildirib ki, iki ildən bir təşkil olunan sərgi müasir janrlarda yaradılan yeni əsərlərin geniş ictimaiyyətə təqdim edilməsində, habelə rəssam və heykəltəraşların yaradıcılığının təbliğində böyük əhəmiyyətə malikdir.

Sərginin sponsoru "Koç Holdinq"in rəhbəri Ömər Koç qeyd edib ki, tədbirə sərbəst girişin təmin edilməsi incəsənətlə yaxından maraqlanan insanların müasir janrlara aid olan əsərlərlə daha yaxşı tanış olması baxımından müsbət addımdır. O, "Yeddinci qitə" adlandırılan bu sərginin okeanların çirkləndirilməsinə qarşı kampaniyaya da töhfə olduğunu bildirib.

# Xalq artisti Rusiyada seriala çəkiləcək

Xalq artisti Pərviz Məmmədrzayev Rusiya kinematoqrafçılarının istehsalı olan "Rus köləsi" ("Russkiy rab") filmində əsas obrazlardan birini ifa edəcək.



Qeyd edək ki, filmdə rol alan ilk azərbaycanlı aktyor Kamran Ağabalayevdən sonra çəkilişlərə Pərviz Məmmədrzayev də qatılıb.

Pərviz Məmmədrzayev TV layihəsində əsas rollardan biri olan qubernator obrazında çıxış edəcək. Bu barədə aktyor özü məlumat verib.

Rejissor İvan Şurxovetskinin ekranlaşdırdığı 12 seriyalı tarixi filmdə rus aktyorları ilə yanaşı, türk, gürcü və Azərbaycan aktyorları da rol alıb. Hazırda filmin İstanbulun Hadımköy səmtində çəkilişi aparılır.

**LALƏ**




# Hollivud tarixində ən uğursuz film

Müasir Amerika kinematoqrafı tarixində ən uğursuz film "status"u 2012-ci ildə "Disney" studiyasında macəra janrında çəkilən "Con Karter" filminə verilib.

"The Hollywood Reporter"in məlumatında qeyd olunur ki, marketinq xərcləri nəzərə alınmaqla, 363,7 milyon dollar büdcəsi olan bu film prokatda cəmi 284 milyon dollar toplayıb. Yekun maliyyə itkiləri 136,6 milyon dollara bərabər olub. Filmin yaradıcıları müxtəlif maliyyə prosedurları sayəsində ziyanı bir qədər azalda biliblər.

# Yer kürəsinə təbəssüm bəxş edək...

Dənizkənarı Milli Parkda "Nargis" Nəşriyyat Evinin "Make the Earth Smile" "resaykling" (təkrar emal) sərgisi açılıb. Sentyabrın 9-da açılışı keçirilən sərgi ətraf mühitin qorunması probleminə həsr edilib. Açılışa Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA-nın ("Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq" İctimai Birliyi) təsisçisi Leyla Əliyeva, xarici ölkələrin Azərbaycandakı səfirliklərindən nümayəndələr, rəsmilər, sənətkarlar, layihəyə tərəfdaş şirkətlərin təmsilçiləri qatılıblar.



Layihə çərçivəsində səkkiz heykəltəraş müxtəlif istehsalat tullantılarından qurulmuş 13 instalyasiya təqdim olunub. Sərgi "Nargis" jurnalının "Ekologiya" mövzusuna həsr olunmuş 63-cü nömrəsi ilə eyni vaxta təsadüf edib. Jurnal üz qabığında – İDEA-nın təsisçisi Leyla Əliyevanın fotosu ilə nəşr edilib.

"Nargis" komandası ətraf mühitə laqeyd olmayan insanlardır. Nəşr hər birimizin Ana Yer kürəsinin qorunmasını təşviq və təbliğ etməkdə öz məsuliyyətini hiss edir.

"Make the Earth Smile" adlı ekoloji layihə – insanın həyat fəaliyyətinin 13 ən vacib, Yer kürəsinə xüsusilə zərər verən böhranlı sahəsini özündə əks etdirən instalyasiyalardan ibarətdir. Layihənin məqsədi gənc nəsli müsbət nəticələrlə yekunlaşan yeni həyat tərzinə alışdırmaqdır. Sərgidə iştirakçılara ətraf mühitə kömək etmək üçün tövsiyə olunan 13 faydalı vərdiş təsvir edilmiş "Nargis" kitabçaları paylanıb.

Rəşad Ələkbərov, Orxan Hüseynov, Kənan Əliyev, Sabit Zamanov, Teymur Qəribov, Fərid Rəsulov, Nurəli Şahbazov, Nazim Şükürov öz instalyasiyalarını onlara tərəfdaşlıq edən şirkətlərlə birgə yaradıblar.

Sərgini ziyarət edən Təhsil naziri Ceyhun Bayramov təhsil sistemi çərçivəsində "Nargis" Nəşriyyat Evi ilə gələcək əməkdaşlıq üçün ekoloji layihə təklif edib. Daha sonra nəşriyyat evinin rəhbəri Ülviyyə Mahmudova və əməkdaşlar bulvarda zeytun ağacı əkiblər.

Bu, "Nargis" komandasının təşkil etdiyi ilk sərgi deyil: nəşriyyat evi bu ilin aprel ayında İstanbulda jurnalın mövcud olduğu altı il ərzində çəkdiyi ekskluziv fotoşəkillərdən ibarət sərgi təqdim etmiş, iyul ayında isə Bakıdakı Müasir İncəsənət Muzeyində "Women, Children and Well-Being" adlı xeyriyyə sərgisi keçirmişdi.

"Make the Earth Smile" sərgisi oktyabrın 5-dək davam edəcək.

# Özbəkistan portalı "Arşın mal alan" haqqında

Özbəkistanın nargis.uz portalında rus dilində "Arşın mal alan: müsəlman Şərqində birinci operettanın tarixi" sərlövhəli məqalə verilib.




Materialda qeyd edilir ki, böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli bu əsəri 1913-cü ildə yazıb.

2013-cü ildə müsəlman Şərqinin ilk operettası olan "Arşın mal alan" əsərinin 100 illiyi UNESCO səviyyəsində qeyd olunub.

Yazıda əsərin mövzusu haqqında da danışılır, bildirilir ki, operettada Azərbaycan xalq mahnılarının motivlərindən də geniş istifadə edilib.

Qeyd edilir ki, 1913-cü il oktyabrın 25-də Bakıda əsərin uğurlu təqdimatından sonra tamaşa Qafqaz ölkələri, Rusiya, sonra isə bütün dünyanın səhnələrinə ayaq açır.

1915-ci ildə Tiflisdə tamaşa ilə bağlı maraqlı rekord qeydə alınıb. Əsər bir gündə altı səhnədə altı dildə - Azərbaycan, gürcü, rus, aysor, ivrit və erməni dillərində tamaşaya qoyulub.

Məqalədə Amerika ermənilərinin "Arşın mal alan" əsərini özününküləşdirmək cəhdi, operetta əsasında film çəkmələrindən də söhbət açılır.

Yazıda xüsusi olaraq qeyd edilir ki, 1945-ci ildə Bakıda "Arşın mal alan" filmi çəkilir və dünyanın 80 dilinə dublyaj olunur, 150-dən artıq ölkədə göstərilir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4965
**Sifariş:** 3058
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.